"Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!"

*(Qurani-Kərim, əl-Bəqərə, 269)*

## DQİDK sədri İrana rəsmi səfərə gedəcək

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İran İslam Respublikasının İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahiminin dəvəti ilə bu ölkəyə səfər edəcək.

Mayın 2-dən 6-dək davam edəcək səfərin məqsədi iki ölkə arasında dini sahədə təcrübə mübadiləsi və gələcək əməkdaşlığın daha da genişləndirilməsi məsələlərini müzakirə etməkdir.

Səfər çərçivəsində Mübariz Qurbanlının Tehran, Təbriz və Qum şəhərlərində dövlət rəsmiləri və din xadimləri ilə görüşləri də nəzərdə tutulub.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (285) / APREL 2015-ci il


# Prezident İlham Əliyev: Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələrinin birgə, bir ailə kimi yaşaması nadir təcrübədir

## "Bakı-2015" ilk Avropa Oyunları məşəlinin alovlandırılması mərasimi keçirilib



Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak ediblər.

Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edərək deyib: "2012-ci ilin sonunda Avropa Olimpiya Komitəsi birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul etmişdir. Bu, tarixi bir qərar idi. Çünki başqa qitə oyunlarından fərqli olaraq, Avropada Oyunlar heç vaxt keçirilməmişdir. Bu, Azərbaycana Avropa Olimpiya ailəsi tərəfindən göstərilmiş böyük etimad idi. Bu qərara görə Avropa Olimpiya Komitəsinə və onun prezidenti cənab Patrik Hikkiyə Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Bu qərar bizi çox sevindirdi, Azərbaycan xalqını sevindirdi. Bu, bizim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir".

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan və Bakı şəhəri bu Oyunların keçirilməsi üçün tam hazırdır: "Azərbaycanın bölgələrində 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılmışdır. Bakı şəhərində yaradılan və əsaslı şəkildə təmir edilən bütün idman obyektlərimiz ən yüksək standartlara cavab verir. Son illər ərzində Azərbaycanda çoxsaylı dünya və Avropa çempionatları keçirilmişdir. Azərbaycanın sürətli iqtisadi inkişafı əlbəttə ki, bu qərarın qəbulunda öz rolunu oynamışdır. Hesab edirəm, önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan əhalisi bu qərarı böyük sevinclə və qürur hissi ilə qarşılamışdır. Onu da qeyd etməliyəm ki, iki ildən sonra Bakıda İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Yəni, bu idman bayramı davam edir".

Prezident çıxışında qeyd edib ki, Azərbaycan əsrlər boyu sivilizasiyalararası, millətlərarası, dinlərarası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyur: "Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir. Mən əminəm ki, bizim idman bayramlarımıza gələn xarici qonaqlar, idmançılar, məşqçilər Bakıdan öz vətənlərinə ən xoş təəssüratla qayıdacaqlar. Azərbaycan gənc müstəqil dövlətdir. Ancaq bizim çox böyük və zəngin tarixi və mədəni irsimiz var. Azərbaycanın zəngin tarixi, mədəniyyəti bizim qürur mənbəyimizdir. Azərbaycanda qədim tarixi memarlıq abidələri bizim qürur mənbəyimizdir.

Bu gün biz qədim Atəşgah məbədinin önündə toplaşmışıq. Bu gün birinci Avropa Oyunlarının məşəli Atəşgah məbədində alovlandırılacaqdır. Bu məşəl ölkəmizin bütün şəhərlərinə gətiriləcək, bütün ölkəmizi dolaşacaq ki, Azərbaycan xalqı bu gözəl idman və dostluq bayramını qeyd etsin. Mən birinci Avropa Oyunlarında iştirak edəcək bütün idmançılara uğurlar arzulayıram. Qoy, güclü qalib gəlsin! Yaşasın Azərbaycan!"

Daha sonra Prezident İlham Əliyev ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə Oyunların məşəlini alovlandırıb. Dövlətimizin başçısı məşəli "Bakı-2015" Avropa Oyunlarının ilk məşəlçisi, Olimpiya çempionu Rəfiqə Şabanovaya verib.

Beləliklə, Birinci Avropa Oyunlarının məşəlinin səyahəti başlayıb. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub və hər regionda "Alov festivalı"nın keçirilməsi nəzərdə tutulub. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınacaq. Məşəl iyunun 8-də paytaxtdakı idman arenalarında, 9-da isə İçərişəhərdə gəzdiriləcək. İyunun 10-u məşəl proqramının son günü olacaq və Bakıya gətiriləndək təxminən 5500 kilometr məsafə qət edəcək. 660 millimetr hündürlüyü olan məşəlin gövdəsi "Bakı-2015" brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi Oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.

Sonda birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması münasibətilə ziyafət təşkil olunub, birinci Avropa Oyunlarının məşəli ilə xatirə şəkilləri çəkdirilib.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri İsmayıllıda vətəndaşları qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.**

Növbəti belə qəbul aprelin 29-da İsmayıllıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən keçirilib. İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunan qəbulda İsmayıllı, Qəbələ, Oğuz və Şəki rayonlarından gələn 18 nəfərin müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılıb.

Müraciətlər, əsasən, dini icmaların dövlət qeydiyyatı, məscidlərin tikintisi, təmiri, bərpası və yenidən qurulması, təminatı, yerlərdə dini qurumların vəziyyəti və digər məsələlərlə bağlı olub.



Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, qaldırılan məsələlərin araşdırılması və qanunauyğun həlli barədə konkret tapşırıqlar verilib. Bir sıra məsələlər yerindəcə, operativ surətdə həll edilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyatı qurumlara çatdırılmaq üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

Vətəndaşlar yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər.

# Azərbaycan Prezidenti İlham Əliyev Kəbəni və Peyğəmbər məscidini ziyarət edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-7-də Səudiyyə Ərəbistanı Krallığında rəsmi səfərdə olublar.**

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri səfər çərçivəsində İslam dünyasının əsas müqəddəs şəhəri Məkkədə ümrə ziyarətində olublar.

Aprelin 6-da Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri xüsusi zəvvar libası geyinərək əl-Həram məscidinə gəliblər.

Bir neçə mərtəbəli və doqquz minarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.

Ziyarətgahın yüksək səviyyəli din xadimləri dövlətimizin başçısını mehribanlıqla qarşılayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər Kəbənin ətrafına dolanıb təvaf ediblər və məsciddə namaz qılıblar. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Kəbəyə daxil olublar, burada da namaz qılıblar.

Bildiyimiz kimi, Kəbə evinin qapıları müstəsna hallarda ali qonaqlar üçün açılır. Bu dəfə Kəbənin qapıları Azərbaycan Prezidenti İlham Əliyev və ailə üzvləri üçün açılıb. Bu da Prezident İlham Əliyevin şəxsiyyətinə və fəaliyyətinə İslam dünyasında verilən önəmin ifadəsidir. Bu, həm də Səudiyyə Ərəbistanı Krallığı rəhbərliyinin dövlətimizin başçısına olan böyük hörmətinin və dərin səmimi münasibətinin təzahürüdür.

Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlanıb. Azərbaycan Prezidenti və ailə üzvləri bu iki təpə arasındakı məsafəni İslam dininin ayinlərinə uyğun olaraq yeddi dəfə qət ediblər.

Həzrət Məhəmməd (s) bu torpaqda doğulub, peyğəmbərliyə çatıb, İslam dini Məkkədə yaranıb. Məkkədəki Allah evi Kəbə Həzrət Məhəmməd peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən müqəddəs ziyarətgahına çevrilib. Sonralar Kəbə və müqəddəs "Zəmzəm" çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilib. Hər il həcc ziyarəti zamanı dünyanın müxtəlif guşələrindən gələn milyonlarla müsəlman Kəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılır.

Ayə və hədislərdən də bəlli olduğu kimi, Kəbə Yer üzündə insanlar üçün məbəd olaraq tikilən ilk evdir. Aləmlərə uğur, bərəkət və hidayət qaynağı olaraq qurulan Kəbə haqqında Allah-Təala Qurani-Kərimin "Ali İmran" surəsində belə buyurur: "Həqiqətən, insanlar üçün ilk bina olunan ev Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr, İbrahimin məqamı var". Tarix boyu bir çox dəyişikliklərə məruz qalan Kəbə müxtəlif dövrlərdə qismən, ya da tamamilə yenidən inşa olunub və bugünkü möhtəşəmliyinə çatıb.

Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı əl-Həram məscidini seyr edib.

Azərbaycan Prezidentinə məscid haqqında ətraflı məlumat verilib.

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində aprelin 7-də Mədinə şəhərində olub.**



Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri burada Peyğəmbər məscidini ziyarət ediblər.

Peyğəmbər məscidində din xadimləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşılayıblar.

Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Peyğəmbər məscidində namaz qılıblar.

Peyğəmbər məscidi və ya Məscid ən-Nəbəvi adlanan bu müqəddəs məkan dünyanın ən böyük məscidlərindən biridir. İslamda Məkkədəki əl-Həram məscidindən sonra ikinci müqəddəs ocaq hesab olunan Peyğəmbər məscidi hicrətdən sonra Mədinədə Məhəmməd peyğəmbər (s) və əshabı tərəfindən inşa edilib. Sahəsi 400 min kvadratmetr olan məscidin 10 minarəsi var.

Bu məsciddə Məhəmməd peyğəmbərin (s) dəfn olunduğu yerə müstəsna hallarda ali qonaqların daxil olmasına icazə verilir. Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində böyük hörmətlə qarşılanan Prezident İlham Əliyevə olan yüksək münasibətin və onun nüfuzunun nəticəsi idi ki, dövlətimizin başçısına Peyğəmbər məscidində dərin ehtiram göstərildi, Məhəmməd peyğəmbərin dəfn olduğu yer müstəsna hal kimi ali qonağın və ailə üzvlərinin ziyarəti üçün açıldı.

Məscidlə tanışlıq zamanı buraya toplaşan insanlar da Azərbaycan Prezidentinə öz hörmət və ehtiramlarını bildiriblər, onlar dövlətimizin başçısına səmimi salamlarını çatdırıblar.

Məhəmməd peyğəmbərin (s) vaxtında bu məscid Rəsulullahın (s) Mədinədə bütün fəaliyyətinin mərkəzi olub. Buna görə də Peyğəmbər məscidi faktiki olaraq həmin dövrdə İslam ümmətinin mərkəzi hesab edilirdi. Miladi təqvimlə 632-ci ildə Həzrət Məhəmməd (s) dünyasını dəyişdikdə hazırda Peyğəmbər məscidi kompleksinə daxil olan evində dəfn edilib. Hər il Məkkəyə Həcc ziyarətinə gedən zəvvarlar ənənəvi olaraq Mədinəyə gələrək Peyğəmbər məscidində Həzrət Məhəmmədin (s) məzarını da ziyarət edirlər.

Məscid kompleksi müasir texnologiyalar, həmçinin Şərq və İslam mədəniyyətinin vəhdət təşkil etdiyi gözəl memarlıq üslubunda yenidən inşa edilib, ərazisi genişləndirilib. Hazırda burada 650 min müsəlmanın eyni vaxtda ibadətlə məşğul olmaq imkanı var.

* * *

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri aprelin 7-də başa çatıb.***

## Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Pasxa bayramı münasibətilə təbrik edib

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, cansağlığı və firavanlıq arzularımı yetirirəm.

Yüksək mənəvi-əxlaqi dəyərlərin və tolerantlıq ənənələrinin qorunub saxlanıldığı Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluqlarını, dil və mədəniyyətlərini qoruyub saxlayırlar. Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq burada yaşayan hər kəsin vətənidir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizin bütün milli və dini azlıqları, o cümlədən Azərbaycan cəmiyyətində özünəməxsus yeri olan pravoslav xristianlar millətlərarası və dinlərarası münasibətlərə, vətəndaş cəmiyyəti quruculuğuna öz layiqli töhfələrini verərək, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Gözəl bahar günlərinə təsadüf edən Pasxa bayramı xeyirxahlığı, həmrəyliyi mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2015-ci il.*

# Qaxda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans işə başlayıb

***Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə aprelin 29-da Qax şəhərində "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional konfrans işə başlayıb.***



İki gün davam edəcək tədbirdə Qax, Şəki və Zaqatala rayonlarında fəaliyyət göstərən dini icmaların sədrləri, imam və axundlar, fəal dindarlar, ilahiyyatçılar, həmçinin Komitənin rəsmiləri iştirak edirlər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla anıblar.

Tədbiri Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev açaraq dövlət-din münasibətlərindən, ölkəmizdə milli-mənəvi və İslam dəyərlərinin qorunması və təbliği sahəsində görülən işlərdən bəhs edib. Qeyd olunub ki, Azərbaycan tolerant ölkədir və burada bütün dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, Dövlət Komitəsi tərəfindən bölgələrdə davamlı olaraq keçirilən belə tədbirlərin əsas məqsədi dini maariflən-dirmə yolu ilə milli-mənəvi və İslam dəyərlərinin qorunması istiqamətində aparılan işlərə töhfə verməkdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətləndiyini vurğulayan Komitə sədri deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hazırda ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyəyə çatıb. Bu gün Azərbaycan sürətlə inkişaf edir, ölkə iqtisadiyyatı gündən-günə güclənir. Digər bölgələr kimi, bu gün Qax rayonu da yeni inkişaf mərhələsini yaşayır, hər yerdə abadlıq, quruculuq işləri gedir, əhalinin həyat səviyyəsi gündən-günə yaxşılaşır.

Azərbaycan xalqının çox qədim tarixə malik olduğunu vurğulayan DQİDK-nın sədri bildirib ki, Qax rayonu bu tarixi yolun ən bariz nümunələrini özündə əks etdirir. Bu bölgədə hər daşın altında bir tarix vardır. Bu gün Qax rayonu Azərbaycanda müxtəlif xalqların, müxtəlif dini konfessiyaların, icmaların, o cümlədən müxtəlif etnosların birgə yaşadığı ən nümunəvi bölgələrdən biri sayılır. Rayonda alban məbədlərinin, məscidlərin, gürcü kilsəsinin, digər dini ayinlərin icra edildiyi ziyarətgahların mövcud olduğu və birgə fəaliyyət göstərdiyi hamıya yaxşı bəllidir.

Qeyd olunub ki, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dininin ənənəvi dəyərlərinin və mədəniyyətinin təbliği bu gün qarşıda duran ən vacib məsələlərdəndir. Çünki hazırda dünyada İslam dinini radikalizmə sürükləmək meyilləri artmaqdadır. Belə bir şəraitdə dini maarifləndirmə tədbirlərinə daha diqqətlə yanaşılmalıdır. Azərbaycanın inkişafını, tərəqqisini gözü götürməyən bəzi qüvvələr din vasitəsi ilə ölkəmizdə təxribat törətmək istəyirlər. Lakin belə qüvvələr heç zaman məqsədlərinə çata bilməyəcəklər. Onların qarşısı hər zaman qətiyyətlə alınır və alınacaq.

Konfransda Milli Məclisin deputatı Azər Kərimli və digərləri çıxış edərək, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi və tolerantlıq mühitinin qorunması istiqamətində görülən işlərdən danışıblar.

Daha sonra Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev və Milli Məclisin deputatı Azər Kərimli Qax şəhər məscidi, Qax Cümə məscidi və Qax-İngiloy kəndindəki Müqəddəs Georgi kilsəsini ziyarət edərək dindarlar və icma üzvləri ilə görüşüblər.

Konfrans işini aprelin 30-da plenar iclaslarda davam etdirəcək.

# Dövlət Komitəsində görüşlər

## (QISA XRONİKA)

**Aprelin 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Türkiyənin ölkəmizdəki səfirliyinin dini işlər üzrə müşaviri Sadiq Əraslanı fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.**

Görüşdə iki ölkə arasında bütün sahələrdə olduğu kimi, din sahəsində də əlaqələrin yüksək səviyyəsində qurulmasından məmnunluq ifadə olunub, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

***

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 17-də Tacikistan Respublikası Hökuməti yanında Dini İşlər, Milli Ənənələrin, Şənliklərin və Mərasimlərin Tənzimlənməsi üzrə Komitəsinin sədri Süleyman Davlatovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə dini adət-ənənələr, bu sahədə əməkdaşlıq, ali məktəblərdə İslam teologiyasının tədrisi, cəmiyyətdə din ilə bağlı müasir problemlər, radikal dini cərəyanlara qarşı mübarizənin qanunvericilik və normativ-hüquqi əsasları məsələləri müzakirə edilib. Hər iki ölkədə dini ekstremist cərəyanların yaranması ehtimalı və bu kimi neqativ halların qarşısının alınması istiqamətində fikir mübadiləsi aparılıb.

***

**Aprelin 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Küveyt dövlətinin Vəqflər və İslam İşləri nazirinin müavini (1992-ci ildən), Asiya Müsəlmanları Komitəsinin sədri Adil Abdulla əl-Fəlahı qəbul edib.**

Küveyt xalqı ilə Azərbaycan xalqını birləşdirən ortaq dəyərlərdən bəhs olunan görüşdə qeyd edilib ki, Azərbaycan Prezidentinin ərəb ölkələri ilə münasibətində özünəməxsusluq var və bu günlərdə həyata keçirilən Ümrə ziyarəti buna əyani sübutdur.

Görüşün sonunda Adil Abdulla əl-Fəlah Mübariz Qurbanlını Küveytə rəsmi səfərə dəvət edib.

***

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 21-də Türkiyənin keçmiş Diyanət İşləri başqanı Təyyar Altıkulacı qəbul edib.**

Azərbaycanın hər zaman öz tolerantlığı, milli-mənəvi dəyərlərə bağlılığı ilə seçildiyinin vurğulandığı görüşdə İslam dininin, müsəlman ölkələrinin indiki durumu, bütün dünyada yaşanan islamafobiya prosesləri, İslam dini altında radikal cərəyanların yayılması və İslamı nüfuzdan salmaq cəhdləri barədə geniş fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, İslam dininin əsl mahiyyətini, onun terror dini deyil, sülh və barış dini olduğunu bütün dünya ictimaiyyətinə çatdırmaq vacibdir.

***

**Aprelin 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Amerika Yəhudi İcmasının nümayəndəsi, hüquq müdafiəçisi Keri B. Lermeni qəbul edib.**

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayevin də iştirak etdiyi görüşdə Azərbaycanda yəhudilərə hər zaman doğma münasibət bəslənildiyi qeyd olunub. Ölkəmizdəki dövlət-din münasibətlərini, tolerantlıq ənənələrini, yəhudi icmasına göstərilən yüksək qayğı və diqqəti xüsusi vurğulayan qonaq bunun bütün dünya üçün nümunə ola biləcəyini bildirib.

***

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı aprelin 27-də Fransanın "Yəhudi İnstitutlarının Təmsilçilik Şurası"nın prezidenti Rocer Çukermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Beynəlxalq yəhudi təşkilatlarının hər zaman ölkəmizin haqq işinə dəstək verdiyini deyən Mübariz Qurbanlı Azərbaycanın dünyəvi dövlət olduğunu və hər cür dini ekstremizmə, radikallığa qarşı mübarizədə DQİDK-nın xidmətlərindən danışıb. Görüşdə ölkəmizin tolerantlıq modelinin dünyada təbliğ olunması istiqamətində Heydər Əliyev Fondu və onun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti xüsusi vurğulanıb.

***

**Dini Qurumlara İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 27-də türkiyəli ilahiyyatçı Osman Nuri Toppaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeni məscidlərin tikintisinə və tarixi-dini abidələrin bərpasına böyük diqqət ayırdığı, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi görüşdə ölkəmizdə tarixi məscidlərin bərpa və təmir olunduğu, yeni ibadət ocaqlarının inşa edildiyi bildirilib. Qeyd olunub ki, dindən siyasi məqsədlər üçün istifadə edilməməli, İslamın ədalət, sabitlik və səadət dini olduğunu dünyaya yenidən anladılmalıdır.

# Bakıda “İslam maarifçiliyi və müasir dövr” mövzusunda beynəlxalq konfrans keçirilib



Aprelin 16-da Bakıda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə “İslam maarifçiliyi və müasir dövr” mövzusunda beynəlxalq konfrans işə başlayıb.

Tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, din xadimləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, alimlər, KİV təmsilçiləri iştirak ediblər.

Konfransın plenar iclasında AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, İslam dini ilə bağlı dəyərlər Azərbaycan xalqının da milli-mənəvi dəyərlər sisteminin mühüm hissəsini təşkil edir. Bugünkü konfransın keçirilməsinin məqsədi qlobal problemlərin yaratdığı təhlükələr, dünya ictimai fikrini narahat edən ekstremizm, terrorizm, islamofobiya meyillərinin meydana çıxması, qarşılıqlı anlaşma və razılaşma nəticəsində problemlərin həllinə nail olunması məqsədilə elm və din üzrə alim və mütəxəssislərin səylərini birləşdirməkdir. Bu mənada islam maarifçiliyinin rolu böyük əhəmiyyət kəsb edir.

Konfransda Türkiyə, Rusiya, İran, Fransa, Almaniya, Küveyt, Səudiyyə Ərəbistanı, Livan, Mərakeş, İsveç, Finlandiya, Qazaxıstan, Özbəkistan və Qırğızıstan nümayəndələrinin də iştirak etdiklərini bildirən akademik A.Əlizadə bu baxımdan tədbirin xüsusi əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Prezident İlham Əliyevin konfrans iştirakçılarına məktubunu oxuyub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, konfransın keçirilməsinin əsas məqsədi bütün dünyaya dinlə elmin vəhdətinin vacibliyini bəyan etməkdir. Azərbaycan müsəlman dünyasının bir parçası olmaqla yanaşı, həm də dünyəvi və çoxkonfessiyalı ölkədir. Şeyxülislam A.Paşazadə qeyd edib ki, mütərəqqi ənənələrə sadiq olan Azərbaycan Respublikasının bütöv bir tarixi mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bugünkü konfrans da Ulu Öndərin himayədarlığı ilə 1998-ci ildə AMEA-da təşkil edilmiş “İslam sivilizasiyası Qafqazda” beynəlxalq simpoziumunun ənənəvi davamı və XXI əsrdə keçirilən növbəti konfransıdır. Ümummilli Liderin arzuları, ideyaları, onun yaratdığı dövlətçilik məktəbi yaşayır və inkişaf edir. Hazırda Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirir. Dövlətimizin başçısı ölkənin iqtisadi və siyasi qüdrətini artırmaqla yanaşı, dini və elmi mühitimizin inkişafına da həssaslıqla yanaşır. Mədəni irsimizin qorunmasında, milli-mənəvi dəyərlərin inkişafında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri daha sonra deyib: Qloballaşma və inteqrasiya proseslərini geniş vüsət aldığı müasir dünyada, eyni zamanda, ziddiyyətli proseslər, ayrı-ayrı bölgələrdə millimədəni, mənəvi və siyasi qarşıdurmalar, islamofobiya və ksenofobiya halları da müşahidə olunur. Belə vəziyyətdə mədəniyyətlərarası dialoqa, elm və din xadimlərinin birgə fəaliyyətinə ciddi ehtiyac var. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ torpaqlarının işğalını, Xocalı soyqırımını, erməni ekstremistlərinin mütəmadi terrorunun acılarını yaşayan, məscidlərin dağıdılmasının, tarixi abidələrimizin məhv edilməsinin şahidi olan xalqın nümayəndələriyik.

DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, İslam dini mənsublarının sayına görə dünyada ikinci yeri tutur və BMT-dən sonra ən böyük beynəlxalq qurum olan İslam Əməkdaşlıq Təşkilatı özündə 57 ölkəni birləşdirir. Müasir dünyada təhsil, səhiyyə, ekologiya, silahlı münaqişələr və digər problemlərin həllinə yönəlmiş çağırışlar İslam dünyası üçün də aktuallıq kəsb edir. Məhz düzgün İslam maarifçiliyi sayəsində dini intellektual potensialın inkişafına nail olmaq mümkündür. Burada ən önəmli məqam maarifçilik işinin İslam ölkələri arasında əlaqələndirilməsidir. Bu baxımdan Azərbaycanın İslam sivilizasiyasının tərkib hissəsi kimi bu sahədə oynadığı rol, qət etdiyi özünəməxsus tarixi inkişaf dövrü qazanılmış bir sıra uğurların öyrənilməsini əhəmiyyətli edir. Müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra milli-mənəvi dəyərlərimizə, İslam maarifçiliyinə münasibətdə yeni bir mərhələ başladı. Eyni zamanda klassik maarifçilik ruhunun yeni təzahürü, xalqımızın mənəvi mədəniyyətində yeni intibah dövrünün başlanğıcı qoyuldu.



Komitə sədri vurğulayıb ki, Ümummilli Liderin dövlət-din münasibətləri sahəsində müəyyənləşdirdiyi siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycanda bərqərar olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Müasir dövrdə Azərbaycanın dünya ölkələri sırasında layiqli yerini tutmasında, milli-mənəvi irsimizin qorunmasında, inkişaf etdirilərək bütün dünyaya çatdırılmasında və dini ibadət yerlərinin bərpa olunmasında dövlətimizin başçısının böyük xidmətləri var.

M.Qurbanlı regionun başqa təmsilçisi - təcavüzkar Ermənistanın Azərbaycan xalqının milli mentalitetindən irəli gələn başqa dinlərə və xalqlara münasibətdə dözümlülük kimi spesifik xüsusiyyətlərindən sui-istifadə edərək, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti apardığını, son iki əsrdə milyonlarla soydaşımızın etnik təmizləmə və işğalçılıq siyasətinin qurbanına çevrildiyini də konfrans iştirakçılarının diqqətə çatdırıb.

Daha sonra çıxış edən Küveytin vəqflər və islam işləri nazirinin müavini, Asiya Müsəlmanları Komitəsinin sədri Adil Abdulla Əl-Fəlah, Stokholmdakı Qafqaz Araşdırmaları İnstitutunun direktoru, AMEA-nın fəxri doktoru Svante Kornel, Türkiyə Diyanət Başqanlığı sədrinin müavini Həsən Kamal Yılmaz, Müasir İran Tarixi Araşdırma Mərkəzinin rəhbəri Musa Fəqih Həqqani, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və digər məruzəçilər tədbirin əhəmiyyətini vurğulayaraq, ölkəmizdə tolerantlığın həyat tərzinə çevrilməsindən, burada yaşayan, başqa dinlərə mənsub insanlara öz dini ibadətlərini icra etmək üçün yaradılan şəraitdən danışıblar, tolerantlığın Azərbaycan modelindən başqa ölkələrin də nümunə götürməsini arzulayıblar.

Plenar iclasdan sonra konfrans işini üç bölmədə davam etdirib. “Qloballaşan dünyada İslam maarifçiliyinin əhəmiyyəti”, “Multikulturalizm, dinlərarası dialoq və tolerantlıq mühitinin beynəlxalq əhəmiyyəti və Azərbaycanın bu prosesdə rolu”, “Dünya dinləri terrorizm, ekstremizm, separatizm və ksenofobiya təzahürlərinə qarşı” bölmələri üzrə iclaslarda Azərbaycan, rus, ingilis və ərəb dillərində 60-dan çox məruzə dinlənilib.

Konfransın aprelin 17-də keçirilən yekun iclasında əvvəlcə bölmə rəhbərlərinin hesabatları dinlənilib, onların fəaliyyətləri yüksək qiymətləndirilib və konfransın yekun sənədi müzakirə edilərək təsdiqlənib.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

## "İslam maarifçiliyi və müasir dövr" mövzusunda keçirilən Beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi – “İslam maarifçiliyi və müasir dövr” Beynəlxalq Bakı konfransının iştirakçılarını səmimi qəlbdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bu gün sürətlə qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya kimi zərərli təzahürlər, dinin şübhəli siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Buna görə də cəmiyyətdə dinin işıqlı yeri və maarifçilik rolu, beynəlxalq münasibətlər sistemində dinin birləşdirici missiyası, bəşəriyyətin gələcək taleyi naminə sivilizasiyalar və dinlərarası dialoq zərurəti getdikcə xüsusi aktuallıq kəsb edir.

Dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycanda islam maarifçiliyi və müasir dövr kimi mühüm bir mövzu ətrafında tanınmış dini liderlərin, hökumət və dövlət rəsmilərinin, görkəmli alimlərin, din mütəxəssislərinin, nüfuzlu beyin mərkəzləri təmsilçilərinin bir araya gəlməsini son dərəcə təqdirəlayiq hal hesab edirəm. İslamın daxilindəki maarif işığını görənlər onu hamıya göstərməyi də bacarmalıdırlar. Bu baxımdan, keçirilən konfransın elmi tərəfi ilə yanaşı, həm də böyük ictimai əhəmiyyəti var.

Tarixən müxtəlif dinlərin dinc və azad şəklidə yaşayıb formalaşdığı ölkəmizdə bu gün sistemli və harmonik din siyasəti həyata keçirilir. Belə harmoniyaya nail olmağımız Azərbaycanın beynəlxalq nüfuzunu artırır və sizin mötəbər konfransınızın məhz Bakıda keçirilməsi bunu bir daha sübut edir.

Əminəm ki, bugünkü beynəlxalq toplantınızda din və cəmiyyət mövzusunda bir sıra qlobal problemlər və Azərbaycanın dövlət-din münasibətləri sahəsində nümunəvi təcrübəsi ilə bağlı ciddi müzakirələr aparılacaq, gəldiyiniz nəticələr dinlərarası əməkdaşlığın inkişafına, mütərəqqi dini maarifçiliyə, etnik-dini dözümlülük, həmrəylik və sülh işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu xeyirxah və nəcib işdə hər birinizə cansağlığı, konfransınıza uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 15 aprel 2015-ci il.*

# Ermənistanın Azərbaycana təcavüzü, saxta "erməni soyqırımı" və Qərbin ikili standartlar siyasəti

Əli HƏSƏNOV,
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

**XX əsrin 80-ci illərinin ikinci yarısında Sovet İttifaqında yenidənqurma adı altında bir sıra dəyişikliklər baş verdi. Belə bir şəraitdə ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Türkiyəyə və Azərbaycana qarşı genişmiqyaslı kampaniyaya başladılar.**



Bu dövrdə, 1985-ci il fevralın 21-də Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin sovet rəhbərliyinə 24 aprel gününün "Soyqırım qurbanlarının xatirə günü" kimi qeyd edilməsi haqqında müraciəti Sov.İKP MK Siyasi bürosunun iclasının gündəliyinə daxil edilmişdi. Bunun ardınca iyunun 20-də SSRİ Nazirlər Soveti "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərar qəbul etdi. Həmin qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu sayda erməni köçürüldü. Onlar özləri ilə qatı erməni millətçiliyi gətirərək azərbaycanlılara qarşı düşmənçiliyi qızışdıraraq bu istiqamətdə təbliğat işini genişləndirdilər. Artıq 1985-ci ilin sonunda "Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayı "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul etmişdi. 1987-ci il iyulun 18-də Avropa Parlamenti saxta "erməni soyqırımı" iddialarını tanıdı və "soyqırım qurbanlarına" xatirə günü təsis etdi.

1980-ci illərin sonunda ermənilər yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kompaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların havadarları Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar. 1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda hərəkata başladılar. Lakin baş verən sonrakı hadisələr DQMV-in sosial-iqtisadi geriliyi barədə erməni ideoloqlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

1988-ci ildə Dağlıq Qarabağı Ermənistana birləşdirmək tələbilə Azərbaycana qarşı ərazi iddiaları irəli sürən ermənilər o dövrdə təkcə SSRİ hakim dairələrinin deyil, Qərb ölkələrinin dövlət və hökumət orqanlarının himayədarlığına da arxalanırdılar. Bu məsələdə Qərb ölkələrinin hakimiyyət orqanlarına müəyyən təsir gücünə malik xaricdəki erməni lobbisinin də əsas rolu olmuşdur. Faktlar göstərir ki, hadisələrin inkişafının əvvəlində də, sonrakı mərhələlərində də bu amillər güclü rol oynamışdır. Xaricdəki erməni lobbisi bunu SSRİ-nin rəhbər orqanlarına kobudcasına müdaxilə və zorakılıqla təzyiq göstərmək mövqeyindən edirdilər. Erməni lobbisinin təzyiqi və yardımı ilə dünyanın bir sıra ölkələrində SSRİ-nin rəsmi nümayəndəlikləri və beynəlxalq təşkilatlar qarşısında keçirilən saysız-hesabsız nümayiş, yığıncaq və mitinqlər təşkil edilirdi. Qərb dövlətlərinin hakimiyyət orqanlarında ermənilərin təmsil olunmaları və onların dövlətin yüksək vəzifəli şəxslərinə müəyyən təsiri ilk növbədə ABŞ-da özünü daha qabarıq şəkildə göstərirdi. Bu məqsədlə onlar özlərinin bütün siyasi, iqtisadi və hüquqi vasitələrindən istifadə edərək Ermənistana Amerika tərəfindən iqtisadi və humanitar yardım göstərilməsinə çalışırlar.

1989-cu il iyulun 19-da ABŞ Senatı erməni lobbisinin təsiri və təzyiqi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət barəsində qətnamə qəbul etdi. Amerika Senatının Azərbaycan əleyhinə kobud böhtanlarla dolu bu qətnaməsi Azərbaycanda çox narazılıqla qarşılanmış və bununla əlaqədar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qəti etirazını bildirərək ABŞ-ın rəsmi dövlət hakimiyyət orqanları tərəfindən belə hərəkətlərə son qoyulmasını tələb etmişdi. Bəyanatda ABŞ senatının qəbul etdiyi bu qətnamə suveren bir dövlətin-Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirildi. Təəssüf ki, o zaman nə SSRİ Ali Soveti, nə də SSRİ Xarici İşlər Nazirliyi bu məsələyə öz münasibətini bildirmədi. Baxmayaraq ki, SSRİ-nin müttəfiq respublikalarından biri olan Azərbaycanın daxili işlərinə müdaxilə etmək birbaşa SSRİ qanunlarının pozulması və onun daxili işlərinə qarışmaq demək idi.

Bu hadisədən az sonra, yəni 1989-cu il noyabrın 17-də ABŞ Senatının xarici işlər üzrə komitəsi yenidən Azərbaycanın daxili işlərinə kobud müdaxilə edərək Dağlıq Qarabağ barədə qətnamə qəbul etdi. Bu qətnamə Azərbaycana qarşı qərəzli mövqe tutan ABŞ Senatı tərəfindən noyabrın 19-da bəyənildi. ABŞ Senatı xarici işlər üzrə komitəsinin qəbul etdiyi bu qətnamə "Dağlıq Qarabağ xalqının mübarizəsinin ABŞ tərəfindən müdafiə olunmasının ifadəsi" kimi qələmə verilsə də, qətnamənin mətnindən aydın olurdu ki, "Dağlıq Qarabağ xalqı" ifadəsi altında yalnız ermənilər nəzərdə tutulurdu. Qətnamənin bütün bəndləri Azərbaycana qarşı yönəldilmiş böhtan və iftiralardan ibarət idi. Qətnamədə həqiqətdən tamam uzaq olaraq DQMV ermənilərinin öz müqəddəratını təyin etməyə can atması, vilayətin statusunun ixtilaf mənbəyi olaraq narahatlıq doğurduğu, Ermənistanın blokadası və bu kimi məsələlər real faktlara deyil, erməni iddialarına əsaslanaraq vurğulanırdı. Erməni iddialarının qətnamədə öz əksini tapması, SSRİ hökumətinin gördüyü tədbirlərin müsbət qiymətləndirilməsi, Azərbaycan əleyhinə həqiqətdən uzaq, yalan və qərəzli məlumatların verilməsinin nəticəsi idi. ABŞ Senatının bu qərarı ilə əlaqədar SSRİ Xarici İşləri Nazirliyi yalnız bəyanatla çıxış etməklə kifayətləndi.

Bu dövrdə ermənilərin Türkiyəyə qarşı saxta iddiaları da Qərbin bəzi dairələri tərəfindən müdafiə edilirdi. Belə ki, 1989-cu il oktyabr ayının axırında ABŞ Senatı Hüquq komitəsinin qəbul etdiyi qərar layihəsində aprel ayının 24-ü saxta "erməni soyqırımı"nın 75 illiyinin qeyd edilməsi göstərilirdi. Bu layihəyə respublikaçılar partiyasının senatdakı lideri, ermənipərəst senator Robert Doul rəhbərlik etmiş və qərarı 54 senator imzalamışdı.

Azərbaycana və Türkiyəyə qarşı butəzyiqlərin davamı kimi, ayrı-ayrı erməni lobbiçilərinin təsiri və köməyi sayəsində ABŞ tərəfindən 1991-ci il iyulun 20-də Ermənistana iqtisadi yardım göstərmək barədə qərar qəbul olundu. İyulun 26-da isə prezident C.Buşun SSRİ-yə səfəri ərəfəsində ABŞ Senatı əksər səslə ermənilərin guya Azərbaycan ərazisindən zorla köçürülməsini pisləyən qətnamə qəbul etdi. Heç bir əsaslı fakt olmadan qətnamədə Azərbaycanın DQMV bölgəsində və digər yerlərində yaşayan ermənilərə qarşı sovet ordusunun və Azərbaycanın hərəkətləri pislənirdi. Daha sonra senat ermənilərin DQMV-dən zorla köçürülməsini (?) dayandırmağa və münaqişəni dinc yolla danışıqlar vasitəsilə həll etməyə çağırırdı. Demokratik dövlət hesab edilən ABŞ-da Senatın qəbul etdiyi bu qətnamə Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın yalan və iftira ilə dolu olan sənədlərindən birini xatırladırdı.

1988-1991-ci illərdə Dağlıq Qarabağ problemi ilə əlaqədar ABŞ-da bir sıra sənədlərin qəbul edilməsində erməni icması tərəfindən 1971-ci ildə yaradılan Amerikanın erməni məclisinin böyük rolu olmuşdur. Bununla yanaşı, Amerikanın erməni icmasına rəhbərlik edən məclis erməni millətinin mənafeyini tam təmsil etmək məqsədi ilə ABŞ-ın hökumət dairələri, senatorları, konqresmenləri ilə çıx əlaqə saxlayırdı. Bu təşkilat ABŞ Senatında Dağlıq Qarabağ məsələsi ilə əlaqədar müzakirələrdə 100 senatordan 48-ni öz tərəfinə çəkə bilmişdi. Bu dövrdə ABŞ hökumətinin Ermənistan üçün ayırdığı 10 milyon dollara prezidentin fondundan 5 milyon dolların əlavə olunması da məhz bu məclisin xidməti idi.

ABŞ-ın yüksək vəzifələrdə mövqe tutan erməni ictimai və siyasi xadimləri Dağlıq Qarabağ məsələsinin həllində hökumət qulluqçularının, senatorların, konqresmenlərin və digər rəsmi şəxslərin fəal iştirakına və bu işdə öz köməklərini göstərməsinə nail olmaq üçün hər cür vasitələrdən, ən kiçik imkandan belə tam müvəffəqiyyətlə istifadə edərək onların vasitəsilə Sovet İttifaqının dövlət və hökumət orqanlarına təzyiq göstərməyə çalışırdılar. SSRİ-nin süqutundan sonra regionda nüfuz uğrunda rəqabətə girişmiş böyük dövlətlər keçmiş ittifaqın müstəqillik qazanmış respublikalarına, xüsusilə, zəngin təbii sərvətlərə və əmək ehtiyatlarına malik Azərbaycana yenə də qərəzli mövqedən baxmağa başladılar.

1992-ci il oktyabrın 24-də Konqresin 102-ci çağırış 2-ci sessiyasında keçmiş SSRİ-nin Azərbaycandan başqa digər 11 respublikasına (Ermənistan, Belorus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan) demokratiyasının inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardımı nəzərdə tutan "Azadlığı Müdafiə Aktı" və ona 907-ci əlavənin qəbul edilməsi Azərbaycan-ABŞ münasibətlərini bir qədər də soyudaraq ikitərəfli münasibətlərdə daim müzakirə obyektinə çevrilən problem yaratdı. Azərbaycana qarşı iqtisadi yardıma qadağa qoyan bu qərarda göstərilirdi ki, "Birləşmiş Ştatların Azərbaycana yardımı o vaxta qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyənləşdirib konqresə məlumat versin ki, Azərbaycan hökuməti bütün blokadaları, həmçinin Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücündən istifadəsini dayandırmaq üçün əməli iş görür". Qəbul edilən bu 907-ci əlavənin mətnində açıq-aşkar göstərilirdi ki, bu qərar, regiondakı real vəziyyətin təhlilindən deyil, yalnız münaqişə tərəflərindən biri olan Ermənistanın mənafeyi və nöqteyi-nəzərindən qəbul edilmişdi. Bu qərarın qəbul edilməsində heç şübhəsiz, konqresə böyük təsir gücünə malik erməni lobbisinin əsas rolu olsa da, o dövrdə Azərbaycan-ABŞ munasibətlərində də soyuqliq yaratmışdı.

Qərb ölkələrində Azərbaycan əleyhinə olan mərkəzlərdən biri də məhz Fransadakı erməni icmasıdır. Azərbaycan əleyhinə mənfi ictimai rəyin formalaşmasında erməni diasporu ilə yanaşı, eyni zamanda böyük tirajına və yüksək poliqrafiya keyfiyyətinə malik çoxsaylı mətbuat orqanlarının rolu da böyük olmuşdur.

➩ 6

# Ermənistanın Azərbaycana təcavüzü, saxta "erməni soyqırımı" və Qərbin ikili standartlar siyasəti

5 ⇦ Fransanın kütləvi informasiya vasitələri, məsələn "Mond", "Fiqaro", "Parizyen" kimi qəzetlər, ölkənin bir sıra televiziya şirkətləri, xüsusilə TF-1 və "Antenn-2" şirkətləri Azərbaycan əleyhinə təbliğat aparır, Dağlıq Qarabağ ətrafında və Ermənistan-Azərbaycan sərhəddində baş verən hadisələrə ermənilərin mənafeyi, eləcə də nöqteyi-nəzərindən yanaşırdılar. Təsadüfi deyil ki, akademik A.Aqanbekyan Dağlıq Qarabağa dair ermənilərin iddialarını ilk dəfə məhz Fransada açıqlamış və 1987-ci il noyabrın 18-də nəşr edilən "Hummanite" qəzetində çap olunmuşdu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

XX əsrin sonunda, azərbaycanlılar növbəti dəfə etnik təmizləmə və soyqırıma məruz qalmışlar. Bütün dövrlərdə olduğu kimi ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunmuşdur. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. 1992-ci il fevralın 26-da ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı faciəsi tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Sonqmi, Ruanda, Srebrenitsa və Xolokost kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adı çəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur. Ancaq bütün dünyanın gözü qarşısında və yaxın tariximizdə baş verən bu dəhşətli soyqırıma böyük dövlətlər laqeyid yanaşır, bəzən də ermənipərəst mövqedən çıxış edirlər.

1992-ci ildən beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in Minsk qrupunun vasitəçilik səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən yeni formada da addımlar atılmışdır. Çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan dövləti öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına manеə törədir. Buna səbəb bir tərəfdən Ermənistan Respublikasının qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətini davam etdirməsi, digər tərəfdən beynəlxalq təş¬¬kilatların, təcavüzkarla təcavüzə məruz qalanı eyni tutmasıdır.

Son illərdə Ermənistanın və Qərbdəki bəzi qurumların saxta "erməni soyqırımı" haqqında uydurmalarına gəldikdə isə, bu iddia subyektiv mülahizələrə söykənməklə yanaşı, islamofob, anti-azərbaycan və anti-türk meyillərin son dövrlərdə güclənməsinin təzahürüdür. 2015-cü il mart ayının 12-də Avropa Parlamenti "Dünyada insan haqları və demokratiya" adlı sənəddə Avropa İttifaqına daxil olan 28 ölkəyə qondarma "erməni soyqırımı"nın tanınması ilə əlaqədar müraciət etmişdir. Bu günlərdə isə Avropa Parlamenti bunun davamı olaraq növbəti addımı atmaqla anti-azərbaycan və anti-türk mövqeyini bir daha ortaya qoydu. Həmin sənədin mahiyyəti ondan ibarətdir ki, Avropa İttifaqına daxil olan ölkələr 24 apreli tarixini "erməni soyqırımı günü" kimi qeyd etsinlər.

Bu qətnamənin qəbul edilməsi hazırda Avropada, Qərbin təşəbbüsü ilə yaradılan əksər beynəlxalq qurumlarda, o cümlədən və xüsusilə Avropa Parlamentində ikili standartlar və islamofob əhval-ruhiyyənin hökm sürdüyünü göstərir. Bununla yanaşı, neçə illərdir biz bütün dünyaya, həmçinin Avropa ölkələrinə və beynəlxalq təşkilatlara yarası hələ sağalmamış Xocalı soyqırımı haqqında həqiqətləri, son 200 ildə ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri real faktlarla çatdırırıq. Amma bunun qarşılığında Avropa ölkələri, Avropa Parlamenti, Avropa Şurası kimi qurumlar məsələ ilə bağlı obyektiv, real təsiri olan heç bir qərar qəbul etməmişlər. Əksinə tarixi faktlar, sənədlər təsdiq edir ki, 1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırımı olmamışdır. Türkiyənin müharibəyə cəlb olunduğu həmin dövrdə ermənilər çoxsaylı silahlı dəstələr yaradaraq arxa cəbhədə üsyan qaldırmış, türk ordusuna qarşı hücumlar təşkil etmiş, ayrı-ayrı şəhər və qəsəbələrdə kütləvi qətllər törədərək, əhaliyə qarşı qeyri-insani aksiyalar həyata keçirmişlər. Təbii ki, türk ordusu da dinc əhalini müdafiə etmək, onları erməni vəhşiliklərindən qorumaq üçün lazımi tədbirlər görmüşdür. Ermənilərin bu və ya digər ərazilərə köçürülməsi zamanı da heç bir soyqırımı baş verməmişdir. Heç şübhəsiz ki, Avropa Parlamentinin qondarma "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnamə Avropa Parlamenti tarixində heç bir həqiqəti əks etdirməyən, I Dünya müharibəsinin real tarixini təhrif edən, ədalətsiz, xüsusi məqsəd daşıyan və siyasiləşmiş bir qərardır.

Buna görə hazırda tarixi reallığı təhrif edərək, heç bir fakta istinad etmədən, o dövrün arxiv materiallarını araşdırmadan bir qrup siyasətçinin, deputatın ötən əsrin əvvəlində baş verən hadisələri qiymətləndirməsi tamamilə yanlışdır və "erməni soyqırımı" haqqında iddialar subyektiv mülahizələrə söykənməklə yanaşı, islamofob, anti-müsəlman və anti-türk meyillərin güclənməsinin təzahürüdür. Bu, həm də müasir dünyada, xüsusən Qərbdə hökm sürən ikili standartların nəticəsidir. Təbii ki, Qərbin ayrı-ayrı dairələrinin tarixi təhrif etmək və müsəlman dünyası haqqında yanlış təsəvvür formalaşdırmaq cəhdləri pislənilməli, bütün iddialar konkret faktlar əsasında cavablandırılmalıdır.

Tərəqqipərvər bəşəriyyət bilir ki, belə hadisə olmayıb və bu kimi qərarlar, qətnamələr yalnız ayrı-ayrı dairələrin öz maraqlarını təmin etmək cəhdlərinin nəticəsi olaraq meydana çıxır.

Eyni zamanda, bu qətnamə Avropa Parlamentinin birinci belə subyektiv, anti-islam, anti-türk və anti-Azərbaycan mahiyyəti kəsb edən qərarı deyil və çox güman ki, gələcəkdə də biz bu cür "qərarların" şahidi olacağıq. Həm Azərbaycan, həm də Türkiyə anti-qərb mövqeyində deyil Qərblə bütün sahələrdə ədalətli, bərabərhüquqlu əməkdaşlığa və tərəfdaşlığa hazırdırlar. Amma təəssüf ki, son zamanlar həm ABŞ-da, həm də Avropada müsəlman və türk xalqlarına qarşı bir ovqat hökm sürməkdədir. Bu siyasətin Qərbə nə verəcəyini tarix özü göstərəcək. Amma Azərbaycan dövləti imkan verə bilməz ki, onların bu kimi ədalətsiz qərarları dünya ictimaiyyətinə təlqin olunsun və real həqiqət kimi zorla insanların şüuruna yeridilsin. Bu qərardan sonda Azərbaycan Avropa Parlamenti ilə münasibətlərinə yenidən baxmalı olacaq və artıq Azərbaycan Avropa Parlamentinin "Avronest" qrupunda fəaliyyətini dayandırmışdır. Belə getsə, Avropa Parlamenti ilə də bütün əlaqələrə yenidən baxmalı olacağıq.

Avropa Parlamentinin belə bir ədalətsiz mövqe nümayiş etdirilməsi ilk dəfə deyil. 2014-cü ildə 751 parlamentarisi olan bir təşkilat tələsik 46 nəfər üzvünü toplamaqla Azərbaycan haqqında daha bir qətnamə qəbul etmişdi. Təbii ki, bu qətnamənin də hüququ bazası yox idi. Buna baxmayaraq, Avropa türk dünyasına qarşı öz qərəzini, qeyri-obyektivliyini və ayrıseçkiliyini açıq şəkildə nümayiş etdirir. Bu, həm də Avropanın belə üsullarla Azərbaycana və Türkiyəyə təzyiq edərək siyasi kursunu dəyişməyə məcbur edilməsinə yönələn bir addımdır. Bütün bunlara rəğmən Avropa Parlamenti qətnamə qəbul edərkən düşünməli, atdığı addımın demokratiyaya, beynəlxalq hüququn tələblərinə zidd olub-olmamasını müəyyən etməlidir.

Avropa Parlamentinin belə bir məsuliyyəti - yüz il bundan əvvəl "erməni soyqırımı" deyilən və olmamış bir hadisəni öz üzərinə götürməsi eyni zamanda, Azərbaycan ictimaiyyətində Avropa demokratiyasına olan inamı da sarsıtmışdır. Bir qədər əvvəl Roma Papası tərəfindən saxta "erməni soyqırımı"nın tanınması barədə verilmiş bəyanat da dünyada baş alıb gedən ədalətsizliyin və islamofobiyanın göstəricisidir. Heç şübhəsiz ki, Azərbaycan dövləti və xalqı, belə yalanlarla, "qara piar" kampaniyaları ilə "Avrovision" mahnı müsabiqəsi zamanı da qarşılaşmış və indi də I Avropa Oyunları ərəfəsində həmin siyasəti açıq-aşkar müşahidə edirik.

2003-2014-cü illər Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm mərhələ olmuşdur. Belə ki, Azərbaycan, son illər ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilmişdir. Digər tərəfdən, bu hadisə son illərdə Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsidir. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin mərkəzinə, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkan kimi qiymətləndirilməlidir. Son illər ərzində Azərbaycan istər siyasi, istər iqtisadi sahədə böyük uğurlara imza atmışdır. Bu uğurlar bugünkü Azərbaycan reallıqlarını əks etdirir. İqtisadi sahədə uğurlar mötəbər beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. Azərbaycanın kredit reytinqləri artmaqdadır. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz artıq dünyada 38-ci, MDB məkanında isə 1-ci yerdədir. Bu, çox böyük nailiyyətdir və Azərbaycan iqtisadiyyatının çoxşaxəli şəkildə inkişaf etdiyini göstərir.

Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı cənab İlham Əliyev qeyd etdiyi kimi "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar da məhz ölkəmizin uğuru olmaqla yanaşı, Azərbaycanın dünyada artan nüfuzunun, geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir. Bu baxımdan Azərbaycanın müasir geosiyasi şəraitdə inkişaf etmiş dövlət kimi özünü təqdim etməsini heç şübhəsiz ki, bəzi qüvvələr qəbul edə bilmirlər. Azərbaycan bu kimi tədbirlərdə özünü, mədəniyyətini, xalqının adət-ənənələrini, keçdiyi yolu, tarixini, bir sözlə sivil dünyanın dövlətin dəyərləndirməsində istifadə elədiyi digər dəyərlərini dünyaya təqdim edir. Bununla yanaşı, Azərbaycan bu gün İsveçrə, Norveç, Fransa, İngiltərə kimi inkişaf etmiş Avropa dövlətləri ilə bir sırada durur və yüksək səviyyəli tədbirləri həyata keçirir.

Azərbaycan bu cür dünya səviyyəli tədbirlərin ən yüksək standartını ortaya qoyursa, o zaman anti-müsəlman siyasəti, ovqatı, hansı ki, bu gün Avropada, Qərbdə hökm sürür bütün bunlar heç də bəzi qüvvələri razı salmır. Məhz erməni lobbisi də bunun arxasında dayanır və istəmir ki, bu gün Azərbaycan sivil dünyaya olduğu kimi təqdim olunsun. Çünki, onlar illərlə Azərbaycan haqqında özlərinin düşündüyü mənfi rəyi formalaşdırmağa çalışmışlar və bu gün də bu anti-Azərbaycan siyasəti davam edir. Erməni lobbisinin təsiri altında olan bəzi Avropa və Qərbin hüquq müdafiə, mətbuatla, insan hüquqları vətəndaş cəmiyyətləri ilə bağlı təşkilatlar da erməni lobbisinin təsiri altında anti-Azərbaycan fəaliyyətinə qoşulurlar. Bunların sırasında bəzi hökümətlərarası təşkilatlar və qurumlar "fəallıq" göstərirlər.

Bu səbəbdən, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür o da haqlıdır. Ona gə də güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət".

# "İslam dininin ənənəvi dəyərlərinin və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir"






***Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) İslam dininin ənənəvi dəyərlərinin təbliği ilə bağlı regionlarda dini maarifləndirmə tədbirlərini davam etdirir. "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda növbəti belə bir tədbir aprelin 6-7-də Zaqatala şəhərində Rayon İcra Hakimiyyəti ilə birgə təşkil olunub.***

İki gün davam edən tədbirdə Zaqatala, Balakən və Qax rayonlarında fəaliyyət göstərən dini icmaların sədrləri, imam və axundlar, fəal dindarlar, ilahiyyatçılar, həmçinin Komitə rəsmiləri və Milli Məclisin deputatları iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və istirahət parkında ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Mədəniyyət evində keçirilən tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə açıb. M.Əhmədzadə İslam dininin dəyərlərinin qorunması məqsədilə keçirilən bu cür maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edərək, konfransın işinə uğurlar arzulayıb. Bildirilib ki, dini icmalarla qarşılıqlı münasibətlərin formalaşması nəticəsində rayonda dini durum sabitdir, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün davamlı tədbirlər həyata keçirilir.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı daha da sürətlənib. Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması üçün misilsiz xidmətlər göstərdiyini vurğulayan Komitə sədri hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib. Diqqətə çatdırılıb ki, indi Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələri dinc yanaşı, azad şəraitdə yaşayırlar.

Komitə sədri bildirib ki, ayrı-ayrı bölgələrdə təşkil olunan bu tədbirlərin əsas məqsədi dövlət-din münasibətləri ilə əlaqədar Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərini ictimaiyyətin diqqətinə çatdırmaqdır. Vurğulanıb ki, dünyada İslam dinini radikalizmə sürükləmək meyillərinin artdığı bir zamanda milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dininin ənənəvi dəyərlərinin və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir.



Konfransda Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova, Milli Məclisin deputatı Kamilə Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı İbrahim İbrahimov çıxış edərək ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, tolerantlıq mühitinin qorunub saxlanması, zərərli təbliğatın qarşısının alınması istiqamətində görülən işlərdən danışıblar.

Sonra konfrans işini plenar iclaslarda davam etdirib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlının moderatorluğu ilə keçirilən birinci plenar iclasda "Dini dəyərləri yenidən düşünmək: "tarixilik" və "qloballıq" iddiaları" mövzusunda məruzə dinlənilib, həmçinin Komitədə hazırlanmış nümunəvi layihənin təqdimatı olub.

İkinci plenar iclasda isə "İslam dünyasında radikalizmin yaranma səbəbləri: tarixilik və müasirlik" və "Dini radikalizmlə mübarizənin metodoloji əsasları" mövzularında məruzələr dinlənilib.

Konfransın birinci günü DQİDK-nın rəsmiləri Zaqatala şəhəri və Əliabad qəsəbəsindəki Cümə məscidlərinə də baş çəkib, həmçinin Bakı İslam Universitetinin Zaqatala filialında olublar.

Aprelin 7-də regional konfrans işini plenar iclaslarda davam etdirib.

## Mübariz Qurbanlı: Qərb "erməni soyqırımı"ndan Türkiyəyə təzyiq kimi istifadə edir

"Bizim erməni yalanı ilə mübarizəmiz xeyirləşərin savaşıdır. Ermənilərin "soyqırımı" iddialarının yalan üzərində qurulduğu bizim tərəfimizdən sübut edilib. Lakin təəssüf ki, Qərb Türkiyəyə bu məsələdən təzyiq kimi istifadə edir".

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı aprelin 23-də Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə Bakıda «Uydurma "1915-ci il erməni soyqırımı"ndan Xocalı faciəsinədək: 100 ilin yalanları və faciələri» mövzusunda keçirilən konfransda söyləyib.

M.Qurbanlının sözlərinə görə, əslində, soyqırımı törədən ermənilərin özləridir: "Ermənilər 1905, 1918-19-cu və ondan əvvəlki illərdə Azərbaycan və Türkiyə ərazilərində müxtəlif soyqırımı cinayətləri törədiblər".

Komitə sədri, həmçinin bildirib ki, uydurma "erməni soyqırımı" bu günün məsələsi deyil. Ermənilər uzun müddətdir ki, bu mövzuda öz yalanlarını yaymaqda davam edirlər: "Tarix ibrətdən ibarətdir. Tarixdən ibrət götürməyənləri tarix özü cəzalandırır. Ermənilər çox təəssüf ki, tarixdən ibrət götürə bilmirlər. Çünki tarixdə heç bir yalan həqiqət kimi qəbul edilə bilməz. Bu gün dünya da erməni yalanlarını açıq şəkildə görməkdədir".

Dövlət Komitəsinin sədri bildirib ki, ermənilərin uydurduqları yalanların ifşa olunması üçün həm Türkiyə, həm də Azərbaycan tərəfindən elm adamları xeyli iş görüblər. Eyni zamanda, Azərbaycan və Türkiyə alimləri birgə konfranslar keçiriblər. Həmçinin, Türkiyə tərəfi həmin hadisələrə dair arxivlərin açılmasını təklif edib. Ermənilər isə arxivlərin açılmasından qaçır.

Həmçinin o vurğulayıb ki, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən 1998-ci ilin mart ayında imzalanmış azərbaycanlıların soyqırımı haqqında Fərman tarixi həqiqətlərin qiymətləndirilməsi baxımından mühüm sənəddir.

## Dini radikalizmə qarşı mübarizədə ən effektiv vasitə maarifləndirmədir

**Aprelin 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Binəqədi rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Binəqədi rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə qadınların rolu" mövzusunda tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə YAP Binəqədi rayon təşkilatının foyesində Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzüblər. Daha sonra YAP Binəqədi rayon təşkilatı Qadınlar Şurasının sədri Aytac Əliyeva mərasimi açaraq mövzu ilə bağlı ətraflı məlumat verib.

Tədbirdə çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, dini radikalizmə qarşı mübarizə tədbirləri daha da gücləndirilib. O vurğulayıb ki, İslam dini dünyada öz mövqeyini, rolunu və nüfuzunu qoruyub saxlamaqdadır.

Ölkəmizdə dövlət-din münasibətlərindən danışan Komitə sədri qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. M.Qurbanlı gənclər arasında dini maarifləndirmə işinin aparılmasının zəruriliyindən, bəzi radikal qrupların gəncləri öz təsir dairəsinə salmağa çalışmasından danışaraq, bunun qarşısının alınması üçün görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb. Komitə sədri bildirib ki, Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu mübarizədə ən effektiv vasitə maarifləndirmə işidir.

Daha sonra çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov gənclərimizin bilməyərəkdən radikal dini təriqətlərin təsirinə düşmələrindən danışıb. O qeyd edib ki, şübhəsiz, bu gün Azərbaycanın inkişafını istəməyən qüvvələr də var. İnsan mənəviyyatlı olmalı və bir-birinə dəyər verməlidir.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi din siyasətinin lap başdan sağlam, düzgün istiqamətdə qurulmasıdır

***Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Mübariz Qurbanlının "Azərbaycan" qəzetinə müsahibəsi***



**- Mübariz müəllim, dünyəvi dövlət olan Azərbaycanda həmçinin mükəmməl dövlət-din münasibətləri də formalaşıb. Hazırda bu münasibətlər hansı məcrada cərəyan edir?**

- Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atmışdır. Ölkəmizin din sahəsindəki hazırkı durumu sabit qiymətləndirilir. Dövlət və dini icmalar arasında münasibətlər yüksək səviyyədə qurulub, qarşılıqlı əlaqələr qanun çərçivəsində inkişaf etdirilir, maarifləndirmə işi geniş miqyasda aparılır, müxtəlif dini konfessiyalar arasında tolerantlıq münasibətləri davam etdirilir. Bundan başqa, dövlət dini icmalara göstərdiyi qayğını gündən-günə artırmaqdadır. Böyük tarixə malik məbədlərin təmir və bərpası davam etdirilir, dini ayinlərin icrası üçün yüksək şərait yaradılır. Ölkə rəhbərliyinin din sahəsində yeritdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri beynəlxalq hüquq normalarına uyğun tənzimlənir, dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir, ölkədəki tolerantlıq mühiti qorunub saxlanılır. Azərbaycanın dini tolerantlıq modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur.

Bu, bir həqiqətdir ki, Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi hər sahədə olduğu kimi, dinlə də bağlı siyasətin lap başdan sağlam, düzgün istiqamətdə qurulmasıdır. Məlumdur ki, hələ müstəqilliyinin ilk illərində Azərbaycanın coğrafi mövqeyi, təbii sərvətlərlə zənginliyi, bir çox ölkələrin maraqlarının bölgədə toqquşması dini fəaliyyət sahəsində cərəyan edən hadisələrə təsirsiz ötüşmürdü və bu da yeni problemlər yaradırdı. Belə olan halda problemlərin çözümü yalnız dinlə bağlı daha həssas, qətiyyətli, həm də balanslaşdırılmış siyasətin həyata keçirilməsindən asılı idi ki, bu da məhz Ulu Öndər Heydər Əliyevin sayəsində mümkünləşdi.

Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışı dini dəyərlərə münasibətdə, dövlət-din münasibətlərində yeni mərhələnin başlanğıcı oldu. Çox keçmədi ki, bu sahədə həyata keçiriləcək siyasətin mahiyyəti xalqa açıqlandı, din sahəsinə qayğı, dini abidələrin bərpası, milli-mənəvi dəyərlərin qorunması və təbliği dövlətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Onun həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan Respublikası dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Əsas məqsəd isə dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlığı gücləndirmək idi.

Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu siyasətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul model kimi qəbul olunur və bəyənilir. Cənab Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Bu istiqamətdə ölkənin birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Bütün bunlar ölkəmizdə dinə dövlət qayğısının bariz nümunəsi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür.

**- Son 8 aydır paytaxtdan ucqar bölgələrə qədər müxtəlif dini icmaların və konfessiyaların təmsilçiləri ilə mütəmadi görüşlər keçirirsiniz. Bu görüşlərin, söhbətlərin ümumi məntiqi nəticəsi varmı? Onların dövlətdən və rəhbərlik etdiyiniz komitədən konkret istəkləri nədir və sizin onlardan gözləntiləriniz hansıdır?**

- Cənab Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq bütün mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir. Biz də öz növbəmizdə mütəmadi belə görüşlər keçiririk. Bu görüşlərin əhəmiyyətini çox müsbət dəyərləndirirəm. Bölgələrdə olmaq, dini mühitlə yerində tanışlıq bir sıra məsələləri daha obyektiv dəyərləndirmək imkanı verməklə yanaşı, vətəndaşların qarşılaşdıqları problemlərin həllini daha çevik həll etmək potensialı yaradır. Bəzən elə olur ki, vətəndaşlar Bakıya gəlib öz problemlərini deməkdə çətinlik çəkirlər, belə olan halda daha rahat ünsiyyət yaranır.

Qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini kitabların və ləvazimatların satışı üçün mağazalara lisenziya verilməsi və digər məsələlərlə bağlı müraciət edirlər. Elə müraciətlər olur ki, onları yerindəcə həll edirik, bəziləri isə əlavə araşdırmaya ehtiyac olduğundan, qeydiyyata götürülüb öyrənilir. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər də olur, belə müraciətləri baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara çatdırırıq. Bizim vətəndaşlarla təkcə qəbullarımız deyil, ictimaiyyət ilə ümumi görüşlərimiz də keçirilir. Burada əsasən dini icmaların üzvləri, ağsaqqallar və gənclər iştirak edirlər. Ümumi qənaət budur ki, vətəndaşlarımız dövlətin həyata keçirdiyi din siyasətini alqışlayır, sabit dini mühitdən, dini konfessiyalar arasındakı münasibətlərdən razılıqlarını ifadə edirlər. Görüşdüyümüz insanlar milli-mənəvi və ənənəvi dini dəyərlərimizə zərər vurmaq istəyən radikal qrupların fəaliyyətini qınayır, onlarla mübarizədə dövlətin yanında olduqlarını bildirirlər. Elə bizim dini icmalardan gözləntilərimiz də budur.

Hesab edirəm ki, hər bir dini icma üzvü şəri ehkamlara həssaslıqla riayət etdikləri kimi, bu sahə ilə bağlı qanunvericiliyin müddəalarını, öz hüquqlarını və vəzifələrini də çox yaxşı bilməlidirlər. Onlar fəaliyyətlərində aktiv olmalı, dini qurumun kənar təsir altına düşməsinə və yad ünsürlərin dini qurumun fəaliyyət göstərdiyi ibadət yerinə müdaxiləsinə yol verməməlidirlər. Ümumiyyətlə, cəmiyyətin mənəvi baxımdan sağlamlığına xidmət etməli, saf dini dəyərləri yaşatmalı, xurafat, dini dözümsüzlük və ayrı-seçkilik halları ilə mübarizə aparmalıdırlar.

**- Xarici ölkələrdə dini zəmində baş verən hadisələr milli təhlükəsizlik məsələlərini bir daha gündəmə gətirir. Bu gün ölkəmizdə bu sahədə vəziyyət nə yerdədir? Xüsusən dindən siyasi məqsədlər naminə istifadə etmək istəyən radikal qruplara qarşı mübarizədə hansı nəticələr var?**

- Belə qruplar dindən sadəcə alət kimi istifadə edirlər, öz mövcudluqlarını, guya ki, müəyyən nüfuza malik olduqlarını göstərmək istəyirlər, ona görə də insanlar arasında münasibətlərin kəskinləşməsində, ictimai asayişin pozulmasında maraqlı olurlar ki, məkrli planlarını həyata keçirsinlər. Yəni bu, bir növ, taktiki gedişdir. Onların bütün bu gedişlərindən xəbərimiz var və müvafiq olaraq həmin radikal dini qrupların fəaliyyətinin məhdudlaşdırılması, aradan qaldırılması üçün çox böyük işlər aparılıb. Artıq bu yöndə Azərbaycanın hüquq-mühafizə orqanlarının, eləcə də ideoloji qurumların apardığı işlər öz mühüm nəticələrini verir. Biz ölkəmizdə həmin qrupları tam aradan qaldırana qədər bu işləri davam etdirəcəyik.

Ümumiyyətlə, Azərbaycanda radikal dini qruplara qarşı mübarizədə 3 istiqamət müəyyən edilib. Bunlardan birincisi, qanun çərçivəsində həyata keçirilən istiqamətdir ki, burada hüquq-mühafizə orqanları aparıcı rol oynayır. Bura Daxili İşlər Nazirliyi (DİN), Milli Təhlükəsizlik Nazirliyi (MTN), prokurorluq orqanları və hüquq-mühafizə sistemindəki digər qurumların fəaliyyəti daxildir. Bu qurumlar radikallaşmış dini qruplar tərəfindən qanun pozuntusuna yol verildiyi təqdirdə onların neytrallaşması və qanun qarşısında cavab verməsi istiqamətində ciddi addımlar atırlar. Dövlət Komitəsi də əlaqələndirilmiş şəkildə həmin tədbirlərdə iştirak edir.

İkinci istiqamət iqtisadi sahə ilə bağlıdır. Radikal qrupların bəziləri qeyri-qanuni yollarla vəsait ələ keçirərək, onun vasitəsilə gənclərin radikal qruplara cəlb edilməsinə, şəbəkələrin yaradılmasına cəhdlər göstərirlər. Təbii ki, bu, yolverilməzdir. Ona görə də onların məkrli məqsədlərini reallaşdırmaq üçün qeyri-sağlam iqtisadi yollarla əldə etdikləri gəlirlərin qarşısı alınır və bundan sonra da alınacaq. Bu istiqamətdə Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və digər dövlət qurumları müvafiq işlər aparırlar ki, kimlərsə qeyri-qanuni yolla Azərbaycana vəsait gətirərək onları burada konstitusion sistemin əleyhinə yönəldə bilməsin. Bu cür vəsaitlərin Azərbaycana qeyri-hökumət təşkilatları adı altında fəaliyyət göstərən qurumlar tərəfindən gətirilməsinin qarşısının alınması üçün də artıq qanunvericilikdə müvafiq dəyişikliklər edilib.

Üçüncü istiqamət ideoloji-təbliğatdır və bu yolla radikalların ideya bazasının çökdürülməsidir. İdeoloji-təbliğat yolu ənənəvi, islami dəyərlərin təşviq və təbliğ edilməsindən, maarifləndirmə işlərinin həyata keçirilməsindən ibarətdir. Biz bu məsələdə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə fəaliyyət göstəririk. Radikal dini və ekstremist qruplara qarşı aparılan təşviqat fəaliyyətində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bilik Fondu, Yeni Azərbaycan Partiyası və QHT-lər yaxından iştirak edirlər. Bu iş kütləvi informasiya vasitələri, müxtəlif konfranslar, seminarlar və digər tədbirlər vasitəsilə həyata keçirilir. Topladığımız təcrübə əsasında maarifləndirmə işlərini daha yüksək səviyyəyə qaldırmağı planlaşdırırıq.

**- Narahatlıq doğuran məsələlərdən biri də xarici ölkələrdə dini təhsil alanların yad təsirlərə məruz qalmasıdır. Hazırda xaricdə dini təhsil məsələsi və oradan qayıdanların buradakı fəaliyyəti necə tənzimlənir?**

- Bəli, bu, narahatlıq doğuran məsələlərdən biridir. Belə ki, bəzən gənclərin dini bilməməsindən istifadə edən müəyyən qüvvələr onları yanlış istiqamətlərə yönləndirməyi bacarıb dini təhsil adı ilə xaricə göndərməkdə maraqlı olurlar. Həmin gənclərin qayıtdıqdan sonra təhsil aldıqları ölkələrin dini ideologiyasını Azərbaycanda yaymaları bir çox halda zərərli meyillərin əmələ gəlməsinə şərait yaradır.

➪ 9

# Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi din siyasətinin lap başdan sağlam, düzgün istiqamətdə qurulmasıdır

8 ⇦ Ciddi narahatlığa səbəb olan faktlardan biri də qeyri-qanuni yolla dini təhsil almaq məqsədi ilə xaricə getmiş gənclərin necə təhsil almasına, hansı təbliğatın təsiri altına düşməsinə, ümumiyyətlə, həmin ölkələrdə nə ilə məşğul olmalarına nəzarətin mümkünsüzlüyüdür. Müxtəlif vasitələrlə xaricdə dini təhsilə cəlb olunmuş belə gənclərin hətta illər boyu ailələri ilə və bütövlükdə Azərbaycanla əlaqələri kəsilir. Ona görə də bu məsələlər təkcə dövlət qurumlarını deyil, valideynləri də düşündürməlidir.

Əslində, bu gün dini təhsili yüksək səviyyədə elə Azərbaycanda da alıb savadlı ilahiyyatçı kimi formalaşmaq mümkündür. Ona görə də Azərbaycanda dini tədrisin perspektivləri qiymətləndirilməlidir. Hazırda Azərbaycanda Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi və Bakı İslam Universiteti mövcuddur. Bu tədris müəssisələrində təhsilin səviyyəsinin yüksəldilməsinə, maddi-texniki bazanın gücləndirilməsinə, dini dərslərə yanaşı, dünyəvi elmlərin də tədrisinə, əhatəli və dərin məzmunlu dərs vəsaitlərinin hazırlanmasına, tədrisin hər hansı məzhəbçilik deyil, ümumi saf dini prinsiplər əsasında təşkil olunmasına, xurafatçılığa yol verilməməsinə, tələbələrə vətənpərvərlik ruhunun aşılanmasına və s. amillərə böyük diqqət yetirilir. Bütün bunlar deməyə əsas verir ki, hazırda Azərbaycan Respublikasında islamşünaslıq elmi inkişaf dövrünü yaşayır. Hesab edirəm ki, dini təhsil sahəsində dövrün tələblərinə uyğun islahatların aparılması, təhsilin keyfiyyətinin artırılması ilə bağlı görülən tədbirlər savadlı milli kadrların hazırlanmasında və dövlət-din münasibətlərinin tənzimlənməsi işində müsbət nəticələr verəcəyinə şübhə yaratmır.

Dövlət Komitəsi ölkədə dini təhsilin səviyyəsinin daha da yüksəldilməsinə və ixtisaslı kadrların hazırlanması işinə diqqəti artırmış, eləcə də gənclərin bu məqsədlə qeyri-qanuni yollarla xarici ölkələrə getmələrinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirmiş, indi də keçirməkdədir. Nəticədə xarici ölkələrdə qeyri-qanuni yolla dini təhsil alanların sayı xeyli azalmış, əvəzində gənclər arasında yerli dini tədris müəssisələrinə rəğbət hissi artmışdır.

**- Komitəyə rəhbər təyin ediləndən sonra başladığınız islahatların mühüm istiqaməti dini maarifləndirmənin keyfiyyətinin artırılması ilə bağlı oldu. İndiyədək bununla bağlı çoxsaylı tədbirlər, layihələr həyata keçirmisiniz. İlkin nəticələrdən razısınızmı?**

- Əslində, maarifçilik işi elə bir məsələdir ki, qısa müddətdə onun nəticələrini ölçmək bir qədər çətindir. Əsas olan metodologiyanın düzgün, dayanıqlı və əhatəli seçilməsidir ki, effektivlik təmin edilsin. Hesab edirəm ki, biz metodologiyamızı düzgün müəyyənləşdirmişik. Bütün ideoloji sahələrdə maarifçiliyin keyfiyyəti onun qalıcılığının zəmanətidir. Din sahəsində də bu belədir. Ona görə də Dövlət Komitəsi ötən müddətdə maarifçiliyin keyfiyyətinə diqqəti daha da artıraraq ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktuallıq kəsb edən mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil etmiş, indi də həmin tədbirləri davam etdirir. Maarifləndirməni mətbu orqanlar və nəşrlər vasitəsilə də həyata keçiririk. Kütləvi sayda ədəbiyyatlar nəşr edilir, bütün regionlar üzrə ictimaiyyətə, xüsusilə də icmalara paylanılır. Dövlət komitəsinin mətbu orqanları olan "Dövlət və Din" jurnalı, "Cəmiyyət və Din" qəzeti, həmçinin İctimai Televiziyada yayımlanan və müəllif proqramımız olan "Din və Cəmiyyət" verilişi öz fəaliyyətlərini davam etdirirlər. Dövlət Komitəsinin rəsmi internet səhifəsi də maarifçilik işində yaxından iştirak edir. Hazırda onun formatının daha da yaxşılaşdırılması istiqamətində işlər gedir. Dövlət Komitəsi "Ənənəvi islam dəyərləri və müasirlik" mövzularında Şəki, Şamaxı, İsmayıllı, Oğuz, Zaqatala, Quba, Lənkəran, Gəncə, Bərdə və s. şəhər və rayonlarda regional konfranslar keçirmişdir.

Hesab edirik ki, bu sahədə maarifləndirmə digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq şəraitində qurulmalıdır. Ona görə də qurumlararası ideoloji tədbirlərimiz gücləndirilmişdir. Xüsusilə Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Dövlət Sərhəd Xidməti və s. ilə tədbirlər planı və əməkdaşlıq haqqında memorandumlar imzalanmış və icrasına başlanılmışdır. Tədbirlər əsasən dini radikalizm və ekstremizmə qarşı mübarizə, zərərli dini cərəyanların yayılmasının qarşısının alınması ilə bağlıdır. Artıq bir sıra uğurlu tədbirlərimiz reallaşmışdır.

**- Mübariz müəllim, tarixdən üzü bəri işıqlı ruhaniləri və müəyyən qrup din alimlərini çıxmaq şərtilə, əsasən ruhani və mollalar barədə cəmiyyətdə qeyri-ciddi və müəyyən neqativ münasibət olub. Cəhalətin, mövhumatın daşıyıcıları olanlar "Molla Nəsrəddin"dən müasir dövrümüzə qədər əsas tənqid hədəfləridirlər. Siz din xadimlərinin və insanlarla ən çox ünsiyyətdə olan mollaların, ümumiyyətlə, müasir obrazını necə görürsünüz? Sizcə, ictimaiyyətdə bu təbəqənin nüfuzunun qalxması üçün nələr edilməlidir?**

- Hər sahədə olduğu kimi, dini sahədə də savadın, intellektin artırılması ən başlıca amil sayılmalıdır. Necə deyərlər, din alimin əlində xurafata qarşı silah, cahilin əlində isə xurafatı təbliğ edən vasitədir. Ona görə də əgər bir insan din xadimliyini özünə peşə seçirsə, o, dövrünün ziyalısı kimi özünü yetişdirməlidir. Mənim anlayışımda nümunəvi din xadimi dini xurafatdan uzaq, onun həqiqətlərini olduğu kimi insanlara çatdıran, vətəninə, millətinə bağlı olan ziyalıdır. Belə din xadimlərimiz az deyil.

Bu gün cəmiyyət arasında tanınan, müəyyən nüfuza malik din xadimlərimiz var. Onların dindar mühitdə nüfuz qazanmalarının başlıca səbəbi təbliğ etdikləri dini dəyərləri şəxsi nümunələrində göstərmələridir. Təcrübə göstərir ki, təkcə bilik və savad deyil, sözü ilə əməli üst-üstə düşən din xadimlərinin nüfuzu cəmiyyətdə həmişə yüksək olur.

**- Bir müddət əvvəl yas mərasimlərində israfçılığın aradan qaldırılması üçün birbaşa sizin Komitə tərəfindən təşəbbüslər irəli sürüldü, tövsiyələr verildi. Cəmiyyətin "sosial sifariş" kimi qəbul etdiyi bu tədbirlər birmənalı dəstəkləndi və əsasən də icra olundu. Yəqin ki, Komitə bu sahədə mövcud vəziyyəti araşdırır, öyrənir. Hazırkı durum nə yerdədir?**

- Bəli, doğru vurğulayırsınız ki, yas mərasimlərində israfçılığın aradan qaldırılması "sosial sifariş"dir. Bu məsələ ilə əlaqədar Dövlət Komitəsi müvafiq tövsiyələr verdi, maarifləndirici tədbirlər gördü, ilahiyyatçılar da öz fikirlərini bildirdilər. Elə indinin özündə bu istiqamətdə maarifləndirmə işi davam etdirilir. Artıq bu tədbirlər və tövsiyələr öz nəticələrini verməkdədir. Bir çox bölgələrdə insanlar artıq yas mərasimlərini sadələşdirmişlər, israfa yol vermirlər. Bilirsiniz, insan psixologiyası doğru olanı rahat qəbul etməyə açıqdır. Yetər ki, buna süni əngəllər maneçilik törətməsin.

Bu gün Azərbaycan sürətlə inkişaf edir. Sosial-iqtisadi sahədə əldə edilən inkişaf milli adət-ənənələrlə müqayisədə xeyli irəlidədir. Milli-mənəvi sahədəki inkişafla sosial-iqtisadi tərəqqi paralel olmalıdır. Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz tədricən dəyişikliyə məruz qalıb və bundan sonra da qalacaqdır. Adət-ənənələr zamanın çağırışlarına uyğun olaraq dəyişir və dəyişməlidir. Təbii ki, cəmiyyətimizdə mövcud adət-ənənələr daha çox dinimizlə əlaqədardır. Bütövlükdə, dinimizlə milli adət-ənənələrimizin harmoniyasından yaranmış bəzi qaydaların sürətli inkişafımızın fonunda zamanın tələblərinə müvafiq olaraq dəyişilməsinə ehtiyac var. Bu ehtiyac və tələb cəmiyyət daxilindən, xalqın özündən gəlməlidir.

**- Mübariz müəllim, 19 il qanunverici orqanda - parlamentdə məhsuldar fəaliyyət göstərmiş bir insan kimi bu gün din sahəsində qanunvericilik bazasını yetərli və təkmil sayırsınızmı?**

- Bilirsiniz ki, respublikamız müstəqillik qazanandan sonra ilk qəbul olunan qanunlardan biri "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bundan başqa, Azərbaycanda dövlət-din münasibətlərini tənzimləyən onlarla qanunlar, qərarlar, fərmanlar verilmiş, 2001-ci ildə isə onların icrası ilə məşğul olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmış və onun "Əsasnamə"si təsdiq edilmişdir.

Təbii ki, zaman keçdikcə cəmiyyətdəki inkişaf amili qanunların da inkişafına təsir göstərərək, ona əlavələr edilməsini zəruriləşdirir. Bu mənada zamanın tələbindən irəli gələrək ötən müddətdə istər "Dini etiqad azadlığı haqqında" Qanuna, istərsə də dinlə əlaqəli qanunvericilik bazasının digər müddəalarına əlavə və dəyişikliklər edilmişdir.

Bir çox halda bu dəyişikliklər mövcud qanunvericiliyi Azərbaycan cəmiyyətinin inkişaf dinamikasına uyğunlaşdırmaq zərurətindən yaranır, nəticədə qanunlarımızı daha da təkmil formaya salır. Bu baxımdan bu gün din sahəsindəki qanunvericilik bazamızı kifayət qədər yetərli saysam da, gələcəkdə hər hansı əlavə və dəyişikliklərin edilməsini də istisna etmirəm.

**- Bu günlərdə Prezident İlham Əliyevin İslam dünyasının mərkəzinə - Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri oldu, müxtəlif görüşlər keçirildi. Müqəddəs dini məkanlar ziyarət olundu. Bununla bağlı fikirlərinizi öyrənmək istərdik...**

- Mən bunu çox mötəbər, hətta tarixi səfər kimi qiymətləndirirəm. Bu səfəri sadəcə iki ölkə arasında əlaqələrin inkişafı prizmasından deyil, eyni zamanda, müsəlman sivilizasiyanın tərkibi olaraq ölkəmizin və onun başçısı cənab Prezidentin və ailəsinin, İslam dəyərlərinə dərindən bağlı olduğunun əyani ifadəsi kimi səciyyələndirmək lazımdır.

Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz əl-Səud ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və əməkdaşlığın inkişafı baxımından bu səfərin əhəmiyyəti yüksək qiymətləndirilib. Ümumiyyətlə, İslam ölkələri arasında qarşılıqlı anlaşmanın və faydalı əməkdaşlığın inkişafının vacibliyi qeyd olunub. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyi və bir-birinə qarşılıqlı dəstək verdiyi ifadə edilib. Təbii ki, iqtisadi məsələlər də müzakirə olunub və bütün bunlar iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri üçün yeni imkanlar açacaqdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi də aparılmışdır. Kral Salman bin Əbdüləziz əl-Səudun bu münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiklərini və Səudiyyə Ərəbistanının mövqeyinin heç vaxt dəyişməyəcəyini vurğulaması müsəlman ölkələri arasındakı həmrəyliyi ifadə edir. Cənab Prezident də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində tutduğu ədalətli mövqeyə və işğalçı ölkə ilə diplomatik əlaqələr qurmadığına, bu məsələ ilə bağlı beynəlxalq təşkilatlarda verdiyi dəstəyə görə Səudiyyə Ərəbistanı Krallığına minnətdarlığını bildirmişdir. Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığının digər hökumət rəsmiləri ilə keçirdiyi uğurlu görüşlər, ölkələrimiz arasında əlaqələrin inkişafının tərənnümüdür.

Səfər çərçivəsində Prezident İlham Əliyevin, xanımı Mehriban Əliyevanın və ailə üzvlərinin Məkkədə müqəddəs Kəbə evində ümrə ziyarətini icra etməsi, burada namaz qılması və dualar etməsi dini ictimaiyyətin xüsusi diqqətini çəkmişdir. Prezident İlham Əliyevin nadir hallarda mümkün olan Kəbə binasının içərisinə daxil olması Azərbaycana və onun başçısına böyük hörmət və ehtiramın göstəricisidir.

Eyni zamanda, Mədinə şəhərindəki Peyğəmbər məscidinin, Məhəmməd peyğəmbərin (s) məzarının ziyarət olunması, namaz qılınıb dualar edilməsi cənab Prezidentin və ailəsinin İslam dəyərlərinə bağlılığının təzahürüdür.

Bu səfər həm də bir mühüm həqiqəti də təsdiq etdi ki, bu gün Azərbaycanın İslam dünyasında böyük nüfuzu var və ölkəmiz artıq müsəlman aləmində güclü rəğbət, ehtiram sahibidir.

# "Qeyri-ənənəvi dini cərəyanların təbliğat metodları və onların qarşısının alınması yolları" mövzusunda konfrans keçirilib



***Aprelin 22-də Azərbaycan Müəllimlər İnstitutunda (AMİ) bu ali məktəbin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Qeyri-ənənəvi dini cərəyanların təbliğat metodları və onların qarşısının alınması yolları" mövzusunda konfrans keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə institutun nəzdində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzini ziyarət edib, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən sərgi ilə tanış olub, büstü önünə əklil qoyublar.

Tədbirdə AMİ-nin rektoru, Milli Məclisin deputatı, professor Aqiyə Naxçıvanlı bildirib ki, "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması konfranslarının gücləndirilməsi haqqında" 2015-ci il üzrə birgə Fəaliyyət planına əsasən Azərbaycan Müəllimlər İnstitutu üzrə müvafiq plan təsdiqlənib. Ötən müddətdə bir neçə "dəyirmi masa" keçirilib, ümumrespublika konfransının təşkili nəzərdə tutulur. Rektor qeyd edib ki, Azərbaycan zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik ölkədir. Sivilizasiyaların qovşağında yerləşən ölkəmiz həmişə İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri olub. Azərbaycan Respublikası dünyəvi dövlətdir və burada dini-mənəvi dəyərlərə, ayrı-ayrı millətlərin dinlərinə hörmətlə yanaşılır. Təəssüf ki, sözdə dini və milli tolerantlıqdan bəhs edən bir sıra dövlətlər və beynəlxalq təşkilatlar erməni vandalizminə heç bir münasibət bildirmirlər. Bəzi dövlətlər İslamı terrorçu din obrazında təqdim



etməyə çalışırlar. Tarixən Azərbaycanda heç zaman milli və dini zəmində ayrı-seçkilik baş verməyib. Hətta Azərbaycan xalqına və bütün türk dünyasına düşmən olan ermənilərin Bakı şəhərindəki kilsəsi də tarixi abidə kimi qorunur və ehtiyac olduqda bərpa edilir. Ermənilər isə işğal etdikləri ərazilərimizdə, demək olar ki, bütün abidələrimizi, o cümlədən yüzlərlə məscid və qəbiristanı dağıdaraq yer üzündən siliblər.

A.Naxçıvanlı bildirib ki, Azərbaycanda dövlət tərəfindən məscidlərin, kilsələrin və sinaqoqların yenidən təmirinə və onların bərpa olunmasına həmişə xüsusi qayğı göstərilib və bu, indi də davam etdirilir. Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycanda 500-dən çox məscid tikilib, yüzlərlə məscid təmir edilib. Dini, mədəni və tarixi abidələrin bərpasına böyük dəstək verən, Ulu Öndərin siyasətinin, ideologiyasının layiqli davamçısı olan Prezident İlham Əliyev bir çox dini abidələrin bərpası ilə bağlı sərəncamlar imzalayıb, tapşırıqlar verib.

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı çıxış edərək bildirib ki, Azərbaycan sivil dövlət kimi dünyaya nümunədir, bəzi dövlətlər dinlərə, millətlərə necə münasibət göstərməyi, multikulturalizmi, tolerantlığı ölkəmizdən öyrənməlidir. Ölkəmizdə heç bir dinə qarşı radikal yanaşma yoxdur və əminik ki, gələcəkdə də olmayacaqdır. Mübariz Qurbanlı ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlət-din münasibətləri barədə danışıb, ölkədə qeyri-ənənəvi dini cərəyanların yayılmasının qarşısının alınması üçün mühüm tədbirlərin görüldüyünü, konfransların keçirildiyini diqqətə çatdırıb. DQİDK-nın sədri mövzunun aktuallığını qeyd edərək, tələbələrin bu istiqamətdə maarifləndirilməsinin ölkənin təhlükəsizliyi naminə vacib olduğunu söyləyib. Vurğulanıb ki, bəzi dövlətlər islamofobiya adı altında qorxu yaradaraq nəinki ayrı-ayrı dinləri, eyni zamanda dinlər daxilindəki cərəyan və təriqətləri üz-üzə qoymaqla bütün bəşəri sivilizasiyaları bir-birinə qarşı radikallaşdırırlar. Bəziləri hətta çox sürətlə inkişaf edən ölkəmizdə də təriqətlərarası radikallaşdırma təbliğatı aparmağa çalışırlar. Lakin Azərbaycan dövləti həmişə bütün dinlərə və mədəniyyətlərə qarşı tolerantlıq nümayiş etdirir, ehtimal olunan istənilən xarici təxribatın qarşısını vaxtında alır. Dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının hüquqları qorunur.

Sonda Dövlət Komitəsinin sədri tədbir iştirakçılarının suallarını cavablandırıb.



# "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu"

Aprelin 8-də Bakı Ali Neft Məktəbində (BANM) "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib.

Tədbirdə BANM-in rektoru Elmar Qasımov konfransın gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizin, ölkəmizdə tolerant mühitin qorunması və təbliği, dini radikalizm meyillərinin qarşısının alınması baxımından böyük əhəmiyyətini vurğulayıb.

Rektor dünyada baş verən münaqişələrin yaranmasında radikal dini təriqətlərdən istifadə edildiyini, belə hadisələrin bütün bəşəriyyət üçün böyük təhlükə olduğunu söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədəki dini




vəziyyət, dini icmaların fəaliyyəti, dövlət-din münasibətləri barədə danışıb.

Mövzunun aktuallığını, bu istiqamətdə gənclərin maarifləndirilməsinin vacibliyini vurğulayan M.Qurbanlı Komitənin əsas vəzifəsinin Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi olduğunu bildirib.

M.Qurbanlı Azərbaycan dövlətinin din sahəsindəki siyasətinin tolerantlığa əsaslandığını və məzhəblərarası yaxınlaşmanın təmin olunmasına yönəldiyini, radikal dini düşüncələrin doğurduğu təhlükələri başa düşərək bu məsələdə prinsipial mövqe tutduğunu qeyd edib.

Dinlərin yaranma tarixi haqqında danışan akademik Vasim Məmmədəliyev ayrı-ayrı dövrlərdə müxtəlif maraqlar zəminində təriqətlərin yaranması və onların siyasiləşdirilməsi barədə məlumat verib. V.Məmmədəliyev gəncləri dini radikalizmin təhlükəsindən qorumaq, onların radikal dini cərəyanların təsiri altına düşməmələri üçün maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Konfransda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# “Radikalizmə meyilli qrupların iqtisadi və ideoloji əsasları tamamilə iflasa uğrayıb”




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda keçirdiyi növbəti tədbir aprelin 14-15-də Cəlilabadda Rayon İcra Hakimiyyəti ilə birgə təşkil olunub. Tədbirdə Cəlilabad, Masallı və Biləsuvar rayonlarında fəaliyyət göstərən dini icmaların sədrləri, imamlar, axundlar və ilahiyyatçılar iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov açaraq, maarifləndirmə məqsədilə keçirilən belə tədbirlərin əhəmiyyətini yüksək dəyərləndirib. Cəlilabaddakı dini durumdan danışan Ə.Əzizov qeyd edib ki, bölgədə qeydiyyatdan keçmiş bütün dini icmalara fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini bildirən icra başçısı dövlətin bu sahəyə qayğısından danışıb.

Konfransda çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Hər kəsin dini etiqad azadlığı vardır. Bununla yanaşı, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir. Mübariz Qurbanlı qeyd edib ki, hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Çünki İslam dini haqqında yanlış məlumatlar insanların düşüncələrində mənfi fikir yaradır. Bu səbəbdən dini maarifləndirmə işinə daha diqqətli yanaşılmalı, bu sahədə görülən işlər davam etdirilməlidir. Dövlət Komitəsinin hüquq-mühafizə orqanları ilə birgə həyata keçirdiyi tədbirləri xüsusi vurğulayan Komitə sədri radikalizmin qarşısının alınmasında bu tədbirlərin böyük əhəmiyyətinin olduğunu diqqətə çatdırıb. Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə dini radikalizmin sosial bazası yoxdur. Həyata keçirilən tədbirlər nəticəsində radikalizmə meyilli qrupların iqtisadi və ideoloji əsasları tamamilə iflasa uğrayıb. Dövlət Komitəsi radikalizmlə mübarizədə cəmiyyətin bütün strukturları, o cümlədən qeyri-hökumət təşkilatları və ictimai birliklərlə birgə bir sıra layihələr həyata keçirir. O qeyd edib ki, biz milli-mənəvi, dini adət-ənənələrimizi, tolerantlıq mühitimizi qorumalı və yaşatmalıyıq. Dövlət Komitəsinin bu cür maarifləndirici tədbirləri gələcəkdə də davam etdiriləcək.

Konfransda iştirak edən Milli Məclisin deputatı Mirkazım Kazımov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov ölkəmizdəki dövlət-din münasibətlərindən, dövlətin dinə qayğısından danışaraq dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayıblar. Bölgə qazısı Prezident İlham Əliyevin dini maarifləndirmə işinin genişləndirilməsi məqsədilə dini icmalara maliyyə yardımı ayırmasını yüksək qiymətləndirərək bildirib ki, ölkədə aparılan düzgün siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, din sahəsində də sabitlik mövcuddur. Çıxışçılar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər.

Sonra konfrans işini plenar iclaslarda davam etdirib. “Dini müxtəliflik: birgəyaşayışın harmonik vəhdəti kimi” mövzusunda keçirilən birinci plenar iclas DQİDK sədrinin birinci müavini Səyyad Salahlının moderatorluğu ilə baş tutub. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin müəllimi, fəlsəfə doktoru Aqil Şirinov “İslamda dini müxtəliflik: tarix və bu gün”, Bakı İslam Universitetinin müəllimi, fəlsəfə doktoru Aslan Həbibov “Vəhdət naminə məzhəblərarası dialoq” mövzularında məruzələrlə çıxış ediblər.

İkinci plenar iclas “Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği” mövzusunda keçirilib. DQİDK-nın Cənub bölgəsi üzrə şöbə müdiri Qağayı Məmmədovun moderator olduğu iclasda DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Niyaz Yaqubov “Milli-mənəvi dəyərlər və milli maraqlar” mövzusunda çıxış edib. DQİDK-nın Dinşünaslıq ekspertizası, ictimai məsələlər və analitik təhlil şöbəsinin müdiri Nahid Məmmədov isə Dövlət Komitəsində hazırlanmış nümunəvi layihəni konfrans iştirakçılarına təqdim edib.

Dinlənilən məruzələr ətrafında müzakirələr aparılıb.

Aprelin 15-də regional konfrans işini plenar iclaslarla davam etdirib.

# Dövlət Komitəsinin sədri KİV rəhbərləri ilə görüşüb

***Aprelin 17-də Mətbuat Şurası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə bir sıra kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüş keçirilib. Görüşdə “Milli-mənəvi və dini dəyərlər: tarixilik və müasirlik” mövzusunda müzakirələr aparılıb.***




Mətbuat Şurasının sədri Əflatun Amaşov belə tədbirlərin təşkilinin böyük əhəmiyyət daşıdığını söyləyib. Bildirib ki, bu görüşlər media təmsilçilərinə dövlət qurumlarının rəhbərləri ilə hər hansı maraq doğuran mövzunun müzakirəsinə imkan yaradır.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycanda kütləvi informasiya vasitələrinin ictimai rəyin formalaşmasındakı rolundan danışıb.

Komitə sədri ölkədəki mövcud dini durumdan söhbət açıb. Bildirib ki, ölkədə radikal dini cərəyanların yayılmasına imkan verilmir və verilməyəcək: “İslamın yayılmasından sonra bu din özünün müəyyən mənada mövqelərinin zəifləməsi prosesinə şahid olub. SSRİ dövründə İslam dinini sıradan çıxarmağa çalışıblar. Tarixdə hansı hökmdar dinlə savaşmağa çalışsa, məhv olub. İslam dini özündən başqa digər dinləri inkar etmir. Azərbaycan xalqı hələ keçmiş Sovet İttifaqı dönəmində öz dinini qoruyub saxlayıb. Azərbaycan xurafata qarşı mübarizədə Şərqdə nümunə olub. Xurafata qarşı mübarizə dinə qarşı mübarizə deyil. Ona görə də radikal cərəyanlara qarşı mübarizə dinə qarşı mübarizə deyil. Azərbaycanda 2000 məscid var. Biz iqtisadiyyatda açıq qapı elan etsək də, mənəvi aləmdə açıq qapı elan edə bilmərik. Dünyanın istənilən şirkəti gəlib burada iş görə bilər. Amma istənilən dini cərəyanın burada yayılmasına imkan verə bilmərik. Milli-mənəvi dəyərlər hər bir ölkənin özünə məxsusdur. Baxmayaraq ki, Azərbaycan tolerant ölkədir, ancaq tolerantıq deyə, öz mövqelərimizi də başqasına güzəştə gedə bilmərik. Tolerantlıq o demək deyil ki, radikal cərəyanlar burada istədiyini edə bilər. Milli-mənəvi dəyərlərimizə müdaxilə edildə bu, artıq tolerantlıq olmur. Tolerantlıq dözümlü yanaşma deməkdir. Biz bütün radikal dini cərəyanların qarşısını almalıyıq”.

M.Qurbanlı çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən dinamik inkişaf prosesinin bir çox sahələrlə yanaşı, milli-mənəvi dəyərlərin qorunması sahəsində də inkişafa geniş imkanlar açdığını söyləyib. Bildirilib ki, Azərbaycanda milli-mənəvi dəyərlər həmişə diqqət mərkəzində olub. Bütün dinlərə hörmət göstərilib, qarşılıqlı münasibətlər yüksək səviyyədədir. Milli-mənəvi dəyərlərin tərkib hissəsi olan islami dəyərlərə xüsusilə hörmətlə yanaşılıb. Azərbaycanda İslam dininin aparıcı din olması rəsmi şəkildə təsbit olunmur. Lakin biz İslam dininin dəyərlərini daim qorumuşuq.

“Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov bildirib ki, müstəqilliyin bizə bəxş etdiyi ən böyük nemətlərdən biri də sərbəst şəkildə ibadət etmək imkanımızın olmasıdır. Qədim tarixə malik Azərbaycanın özünəməxsus adət-ənənələri, milli-mənəvi dəyərləri var. Bizim milli-mənəvi dəyərlərimiz içərisində İslam dini çox önəmli yer tutur. Sovetlər dövründə müxtəlif formalarda edilən təzyiqlərə baxmayaraq, xalqımız adət-ənənələrini, dinini qoruyub saxlaya bildi. Həmin dövrdə bizim xeyli tarixi, dini abidələrimiz, məscidlərimiz məhv edildi. Ancaq dini insanların qəlbindən silmək istəyi baş tutmadı. Xalqımız İslam dinini, milli-mənəvi dəyərlərini yaşatdı.

Tədbirdə, həmçinin bildirilib ki, din çox həssas mövzudur, din bizim tariximizdir, mənəviyyatımızdır, mənəvi dəyərimizdir. Buna görə də KİV din mövzusunda yazarkən ehtiyatlı olmalıdır.

Tədbir Azərbaycan dövlətinin dinlə bağlı siyasəti, ölkəmizdə dini tolerantlığın vəziyyəti, həmçinin bu istiqamətdə KİV-in üzərinə düşən vəzifələr barədə müzakirələrlə davam edib.

# Mübariz Qurbanlı: Dinlər, mədəniyyətlər arasında qarşıdurma bəşəriyyət üçün təhlükə yarada bilər

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə imzaladığı tədbirlər planına əsasən aprelin 2-də "Milli-mənəvi dəyərlərimiz: varislik və müasirlik" mövzusunda toplantı keçirilib.***



Tədbirin keçirilməsində məqsəd mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını, inteqrasiyasını təmin etmək və gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürmək olub.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov tədbiri açaraq ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və inkişafı istiqamətində görülən işlərin önəmindən danışıb. O, belə tədbirlərin mütəmadi keçirilməsinin əhəmiyyətli olduğunu vurğulayıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən dinamik inkişafın bütün sahələrə müsbət təsir göstərməklə yanaşı, milli-mənəvi dəyərlərin qorunması üçün də geniş imkanlar açdığını söyləyib. Bildirib ki, Azərbaycanda milli-mənəvi dəyərlər həmişə diqqət mərkəzində olub. Bütün dinlərə hörmət göstərilir, qarşılıqlı münasibətlər yüksək səviyyədədir. Milli-mənəvi dəyərlərin tərkib hissəsi olan İslam dəyərlərinə xüsusilə hörmətlə yanaşılıb. Azərbaycanda İslamın aparıcı din olması rəsmi şəkildə təsbit olunmur. Lakin biz İslam dininin dəyərlərini daim qorumuşuq.

Mübariz Qurbanlı ölkəmizdə dövlət-din münasibətlərindən danışaraq qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. O, Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə mühüm xidmətlərini qeyd edib və hazırda Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində həyata keçirdiyi işlərdən danışıb.

Dövlət Komitəsinin sədri deyib ki, Azərbaycanda İslam dini ilə yanaşı, digər dinlərin nümayəndələri də fəaliyyət göstərir və onlara heç bir manea yoxdur. Bu, Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunub. Ölkəmizdə heç kim heç vaxt dini baxışına, inancına görə təqib olunmayıb və sıxışdırılmayıb. Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən Azərbaycan bütün dünyaya tolerantlıq nümunəsidir. Azərbaycan mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa mühüm töhfə verir, ölkəmizdə multikultural mühit hökm sürür.

DQİDK-nın sədri əlavə edib ki, insanlar arasında ayrı-seçkilik və onların sıxışdırılması təhlükəli nəticələrə gətirib çıxara bilər. Həyat göstərir ki, insanlar mütləq bir araya gəlməlidirlər, sülh, dostluq şəraitində yaşamalıdırlar. Ayrı-ayrı dinlər, mədəniyyətlər arasında qarşıdurma bəşəriyyət üçün təhlükə yarada bilər. Azərbaycanda insanlar digər dinlər və mədəniyyətlərdən bəhrələnsələr də, adət-ənənələrini və İslam dininin dəyərlərinə sadiqliyini dəyişməyiblər.

Sonda tədbirdə iştirak edən gənclərin sualları cavablandırılıb.




# Uşaqların və gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması önəmlidir






Aprelin 10-da Bakıda Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması" mövzusunda konfrans keçirilib.

Konfransda çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyevin hər zaman gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlər əsasında təhsil və tərbiyə almasını vacib hesab etdiyini deyib. O, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin tərbiyə funksiyasının da inkişaf etdirilməsinin prioritet istiqamət kimi nəzərdə tutulduğunu diqqətə çatdırıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı rəhbərlik etdiyi qurumun və Təhsil Nazirliyinin "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" birgə əmri ilə təsdiq olunmuş Fəaliyyət Planı haqqında məlumat verib.

Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə uyğun olaraq, Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı fəaliyyətindən söhbət açıb və bu istiqamətdə görülən işləri qeyd edib. Bildirilib ki, Təhsil Nazirliyi və Dövlət Komitəsinin birgə əmri ilə təsdiq olunmuş Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi uşaqların və gənclərin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayacaq.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov gənc nəslin, eləcə də uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin rolundan, bu istiqamətdə ardıcıl işlərin həyata keçirilməsindən danışıb. Milli-mənəvi dəyərlərə varislik və müasirlik prizmasından yanaşılmasının zəruriliyini vurğulayan G.İsmayılov, bunun həm dövlətçilik, həm də mənəvi irsimiz baxımından əhəmiyyətini qeyd edib.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, ilahiyyatçı alim, akademik Vasim Məmmədəliyev və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər. Çıxışlarda gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində görüləcək işlərin ayrı-ayrı məqamlarından bəhs olunub.

Konfrans müzakirələrlə davam edib.





# "Həzrət Peyğəmbər və birlikdə yaşama əxlaqı"



Aprelin 17-də Gəncliyə Yardım Fondunun H.Z.Tağıyev adına konfrans zalında Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinin dini işlər üzrə müşavirliyinin təşkilatçılığı ilə Məhəmməd peyğəmbərin (s) doğum gününə həsr olunmuş "Həzrət Peyğəmbər və birlikdə yaşama əxlaqı" mövzusunda tədbir keçirilib.

Səfir İsmail Alper Coşkun və səfirliyin dini işlər üzrə müşaviri Kamil Güneş tədbirin əhəmiyyətindən bəhs edərək, müxtəlif, hətta bəzən eyni din və mədəniyyət daşıyıcılarının bir-biri ilə əks cəbhələrdə durduğu müasir dövrün ağrılı probleminin çözülməsi - qarşılıqlı dialoq mühitinin yaradılması üçün Peyğəmbərimizin (s) həyatının ən gözəl nümunələrdən olduğunu vurğulayıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda dinlərarası dialoqa hər zaman önəm verildiyini və ölkəmizdə əsrlərdir mövcud olan tolerantlıq ənənəsinin xalqımızın ən böyük sərvətlərindən hesab edildiyini deyib. Qeyd olunub ki, müxtəlif dinlərə mənsub insanlar tarix boyu bu torpaqlarda dostluq və qardaşlıq mühitində yaşayıblar. Dövlətimizin bugünkü din siyasətinin əsas istiqamətlərindən biri də məhz bu ənənə üzərində qurulub.



Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsi sədr müavini Salman Musayev, Türkiyə Diyanət Vəqfi Başqanının müavini Həsən Kamil Yılmaz Rəsulullahın (s) sevgi, hörmət və mərhəmətə verdiyi önəm haqqında danışıblar.

# *Radikalizmlə mübarizə mövzusunda tədbirlər təşkil olunub*





**Şirvan şəhərində Daxili İşlər Nazirliyinin (DİN) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkil etdiyi növbəti seminar-treninq keçirilib. Tədbirdə Şirvan şəhəri, Hacıqabul, Sabirabad və Saatlı rayon polis şöbələrinin rəhbərliyi və şəxsi heyəti iştirak ediblər.**

Seminarı giriş sözü ilə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı, hüquq üzrə fəlsəfə doktoru, Polis Akademiyasının dosenti Hikmət Eyvazov açaraq 31 Mart soyqırımı barədə qısa məlumat verdikdən sonra seminar iştirakçıları soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra H.Eyvazov "Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə" mövzusunda məruzə edib.

Azərbaycandakı dünyaya nümunə ola biləcək tolerantlıq mühitindən söz açan məruzəçi bu amildən sui-istifadə etməyə cəhd göstərən bəzi qeyri-ənənəvi dini cərəyan mənsublarının zərərli fəaliyyətinə diqqət çəkərək, DİN-in DQİDK və digər qurumlarla birgə həyata keçirdiyi profilaktik tədbirlər barədə geniş məlumat verib.

Sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı radikal dini cərəyanların ölkəmizdə yayılmasının əsas səbəbləri, onların təbliğat forma və metodları, hədəf aldıqları kontingent, istifadə etdikləri psixoloji təsir vasitələri barədə danışıb, həmçinin onlara qarşı əsasən üç istiqamətdə – hüquqi-inzibati, iqtisadi-maliyyə mənbələrinin məhdudlaşdırılması və dini maarifləndirmə yolu ilə mübarizə tədbirlərinin aparıldığını qeyd edib. Komitə rəsmisi hüquq-mühafizə orqanlarının



bu sahədə həyata keçirdiyi tədbirləri və əməkdaşlığı yüksək qiymətləndirib.

* * *

Daha bir seminar-treninq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Yevlax şəhərində baş tutub. Tədbirdə Yevlax, Ağdaş, Bərdə və Ucar rayon polis şöbələrinin rəhbərliyi və şəxsi heyəti iştirak ediblər.

Tədbirdə DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı, Polis Akademiyasının dosenti Hikmət Eyvazov dini radikalizm və Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə yolları barədə məruzə ilə çıxış edib. Məruzəçi DQİDK ilə birgə maaarifçilik məqsədilə keçirilən bu tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizin tolerantlıq ənənələri, bu ənənənin qorunub saxlanmasının vacibliyi, dövlətin din siyasəti ilə bağlı ətraflı məruzə edib. S.Salahlı bildirib ki, radikal qeyri-ənənəvi dini cərəyanların ölkəmizdə yayılmasının qarşısının alınması üçün maarifləndirmə tədbirləri mütəmadi keçirilir.

Eyni zamanda, tədbirdə DQİDK-nın Şirvan bölgəsi üzrə şöbə müdiri Nizami Məmmədov və QMİ-nin Yevlax rayonu üzrə səlahiyyətli nümayəndəsi Namiq Əliyev çıxış edərək, belə seminar-treninqlərin əhəmiyyətindən danışıblar və dövlət orqanlarının birgə əməkdaşlığının müsbət nəticə verəcəyinə inandıqlarını bildiriblər.

Seminar-treninq sualların cavablandırılması ilə öz işini yekunlaşdırıb.

* * *

Maarifləndirici xarakterli silsilə tədbirlərin növbətisi Tərtər rayonu və Gəncə şəhərində keçirilib. Regional xarakter daşıyan seminarlarda Tərtər, Goranboy rayonları, Naftalan, Şuşa və Gəncə şəhərləri polis idarələrinin rəhbərliyi və şəxsi heyəti iştirak ediblər.

Seminarlarda DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı, Polis Akademiyasının dosenti Hikmət Eyvazov "Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə" mövzusunda məruzə ilə çıxış edərək, bəzi qeyri-ənənəvi dini cərəyan mənsublarının ölkəmizdə mövcud tolerantlıq mühitini və ictimai sabitliyi pozmağa yönəlik fəaliyyətinə diqqəti cəlb edib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə mövcud dini durum, dövlət-din münasibətləri, dini etiqad azadlığını təmin edən qanunvericilik bazası haqqında ətraflı çıxış edib. S.Salahlı vurğulayıb ki, Azərbaycan dünyəvi dövlətdir və dövlətçilik prinsiplərini qorumaq hər bir vətəndaşın borcudur.

# AZƏRBAYCANDA MİLLİ-DİNİ MODEL FORMALAŞDIRILMALIDIR

*Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi*



**- Son dövrlər verdiyiniz açıqlamalarınızda Azərbaycanda milli-dini modelin formalaşdırılması prosesindən bəhs etdiniz. Bu barədə daha ətraflı məlumat verə bilərsinizmi?**

- Bildiyimiz kimi, Azərbaycan çoxmillətli bir ölkədir və onun ərazisində müxtəlif dini konfessiyaların və cərəyanların nümayəndələri yaşayır. Ölkəmiz müstəqilliyin ilk illərindən bir sıra xarici ölkələrin və dairələrin geosiyasi və iqtisadi maraqlarının mərkəzində olub və buna görə də bəzi təsirlərə məruz qalıb. Bu təsirlər arasında din amili özünəməxsus yer tutur. Belə ki, həmin qüvvələr İslam dini örtüyü altında Azərbaycan cəmiyyətinə yad olan ənənələri də ölkəmizə ixrac etməyə cəhdlər ediblər və bu gün də edirlər. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi üçün öz milli-mənəvi dəyərlərimizə söykənən, siyasiləşməmiş və sağlam dini təməllər üzərində qurulan milli-dini model formalaşdırılmalıdır. Bu model İslam dininin əsas meyarlarına, müasir dövrün tələbatları və dünyəvilik prinsiplərinə əsaslanaraq, bizim köklü dəyərlərimizin sistemləşdirilmiş formasını özündə ehtiva etməlidir.

**- Məlumdur ki, ölkəmizdə İslam dininin iki əsas ənənəvi xətti olan şiə və sünni məzhəblərinin nümayəndələri yaşayır. Bunu nəzərə alaraq, milli-dini model hansı prinsiplər əsasında formalaşdırılacaq?**

- Unutmayaq ki, İslam dini Azərbaycanda mövcud olan yeganə din deyil və ölkəmizdə müxtəlif dinin nümayəndələri birgə, dözümlülük və sülh şəraitində yaşayır. Bununla yanaşı, milli-dini model formalaşdırılarkən Azərbaycanda institutlaşmış ənənəvi dini məzhəblərin baza kimi əsas götürülməsi bizim üçün mühüm əhəmiyyət kəsb edir. İnsanlarımız bilməlidirlər ki, milli-dini model deyərkən Azərbaycanın milli-mənəvi dəyərlərinə söykənən, tarixin sınağından çıxmış, fundamental İslam dininin dünyəviliklə uyğunlaşdırılmış forması nəzərdə tutulur. Milli-dini model, xüsusilə, Azərbaycanın dövlət atributu olan bayrağımızın daşıdığı məna və prinsiplərin praktiki həyat tərzimizlə uzlaşdırılmasını təmin etməlidir. İlk növbədə, milli kimlik, müasirlik və demokratiya, mühüm İslam dəyərləri müvafiq modelin ana xəttini təşkil etməlidir. Modelin tətbiqi istiqamətində də bu prinsiplər əsas götürüləcəkdir.

**- Bəs bu modelin tətbiqi istiqamətində konkret addımlar atılırmı?**

- Cəmiyyətin bu modelə adaptasiyası üçün mütəxəssislər və müvafiq qurumlar tərəfindən müəyyən işlər görülür. Öncə əhalinin dini həyata baxış tərzi və bu modelə münasibəti öyrənilir. Bu məqsədlə mütəxəssislər tərəfindən rəy sorğuları hazırlanaraq müasir dövrdə bu modelin prinsip və qaydalarının nə dərəcədə işlək olması araşdırılır. Növbəti mərhələdə bu modeli tətbiq edə biləcək mütəxəssislərin cəlb olunması və bu sahə üzrə milli kadrların hazırlanması planlaşdırılır. Dini təhsil sistemində aparılacaq islahatlar məhz milli-dini modelin formalaşdırılmasına xidmət edəcəkdir.

**- Milli-dini modelin formalaşdırılması üçün dini təhsil sistemində islahatlar nəzərdə tutulurmu? Əgər nəzərdə tutulursa, bunlar hansılardır?**

- İlk növbədə dini sahənin öyrənilməsi və işlənilməsi üçün peşəkar kadr bazası yaradılmalıdır. Bunun üçün zəruri dini biliklər verən və dünyəvilik prinsiplərini özündə birləşdirən dini təhsil mərkəzi formalaşdırılmalıdır. Qonşu dövlətlərə nəzər saldıqda, onların təhsil sahəsində köklü bir sistemə malik olduğunu görürük. Bu münasibətlər tarixi ənənələrə və milli xüsusiyyətlərə sahibdir. Mövcud sistemin nəticəsidir ki, həmin ölkələrdə din sahəsi üzrə mütəxəssis kadrlar yetişir və dövlət-din münasibətlərinin tənzimlənməsində mühüm rol oynayırlar. Lakin biz onların tətbiq etdikləri modeli ölkəmizdə həyata keçirə bilmərik. Çünki Azərbaycan cəmiyyətində çoxfunksiyalı din amili mövcuddur. Milli-dini model də məhz bu amildən çıxış edərək, din sahəsi üzrə milli təhsil sisteminin qurulmasını və milli kadrların yetişdirilərək cəmiyyətə faydalı olmalarını özündə ehtiva etməlidir. Bu baxımdan milli-dini təhsil, milli-dini kadr və milli-dini model formalaşdırılmalıdır.

**- Bu model dini radikallıqla mübarizədə hansı səmərə verə bilər?**

- Radikallıqla mübarizənin ən əsas metodlarından biri dini sahədə maarifləndirmə işlərinin aparılmasıdır. Bunu beynəlxalq təcrübə də sübut edir. Biz radikal kökləri təmizləmək üçün həmin qüvvələrə alternativ ola biləcək bir üslub formalaşdırmalıyıq. Bu üslub da məhz milli-mənəvi dəyərlərimizə əsaslanan bir model üzərində qurulmalıdır. Qeyd olunan model yetişən gənc nəslin öz dəyərlərinə sadiq qalması, milli kimliyinə hörmətlə yanaşması və yad mühitdən qaynaqlanan radikal ünsürlərdən qorunması məqsədinə xidmət etməlidir. Bu modelin sistemli şəkildə tətbiqi günümüzdə radikalizm meyillərinin zəifləndilməsi, eyni zamanda gələcəkdə baş verə biləcək neqativ halların qarşısının alınması üçün mühüm addımdır.

# Dövlət Sərhəd Xidmətində tədbir keçirilib



Dövlət Sərhəd Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq, aprelin 13-də Dövlət Sərhəd Xidmətinin Aparatında "Azərbaycanda radikal dini cərəyanlar və onlara qarşı mübarizə" mövzusunda seminar keçirilib.

Dövlət Sərhəd Xidməti rəisinin müavini general-mayor Azad Ələkbərov, Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov seminarda çıxış edərək, bəzi qüvvələrin radikal dini cərəyanların ölkəmizdə təbliğinə, dövlətimizin dünyəvi xarakterini dəyişmək və sabitliyi pozmaq üçün dini ayrı-seçkilik yaratmaqla insanları müxtəlif təriqətlərə parçalamağa, vətəndaşlarımızı xaricdə fəaliyyət göstərən dini ekstremist qrupların və onların silahlı dəstələrin tərkibində iştirakına cəlb etməklə cinayət tərkibli əməllər törətməyə cəhd göstərdiklərini vurğulayıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu milli siyasət nəticəsində ölkəmizin tolerantlıq və multikulturalizm nümunəsinə çevrilməsi, müxtəlif dini inanclara məxsus insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşaması barədə ətraflı danışılıb.

Seminarda dini amillərdən yararlanmağa cəhd göstərən radikal qüvvələrə qarşı dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verilib, bu kimi ünsürlərlə mübarizədə hamının sayıqlıq göstərməsinin zəruriliyi qeyd olunub.

Sonda dinləyicilərin sualları cavablandırılıb.

# "Dövlət və Din" jurnalının yeni sayı işıq üzü görüb

"Dövlət və Din" ictimai fikir toplusunun yeni – üçüncü nömrəsi çapdan çıxıb.

Toplu Prezident İlham Əliyevin Vatikana rəsmi səfəri, Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olması, tacqoyma günü münasibətilə Roma Papasına təbrik məktubu və Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki ilə açılır. Jurnalda yer alan "Sekulyarizasiya və müasir dünyada dinin yeri" məqaləsində "sekulyarizasiya", "dünyəviləşmə" və "dünyəvilik" terminlərin izahı verilir, onlar arasındakı fərqlər göstərilir. Qeyd olunur ki, bir çox mütəfəkkirə görə, cəmiyyətdə modernləşmə prosesi inkişaf etdikcə dinin ictimai və mədəni rolu azalır. Müəllif nümunələrlə göstərir ki, həmin qanunauyğunluq, əsasən, Qərbi Avropa ölkələri üçün keçərlidir, ABŞ və müsəlman ölkələrinə nəzər yetirdikdə bu, heç də belə deyil. Sonda isə belə bir nəticəyə gəlir ki, nisbi dünyəviləşmə yaşansa da, din müasir cəmiyyətlərdə də insanlara dünyagörüşü, həyatda məna axtarışı və mənsubiyyət duyğusu qazandırma funksiyalarını davam etdirməkdədir.

Dövlət-din münasibətlərinə hüquq kontekstində yanaşılan "Dövlət-din münasibətlərinin hüquqi nizamlanma təcrübəsi" başlıqlı məqalədə dinin bəşər tarixindəki rolu haqda danışılır. Müəllif qeyd edir ki, tarix boyu hər hansı dinə meyil göstərməyən cəmiyyət olmayıb. Bundan başqa, məqalədə dövlət-din münasibətlərinin tarixi inkişaf mərhələlərinə nəzər salınır, bu istiqamətdəki təcrübə və modellərdən bəhs olunur.

Nəşrdə yer alan maraqlı məqalələrdən biri də "İctimai fikir tarixində Tanrının varlığı məsələsi"dir. Müəllif məqalədə fəlsəfə tarixində Yaradanın varlığını sübuta yetirməyə çalışan dəlillər barədə qısaca məlumat verir, bu dəlillərə qarşı irəli sürülmüş əks arqumentlərə toxunur. Sonda belə qənaətə gəlinir ki, teist mütəfəkkirlərin dəlilləri ateist filosofların arqumentləri ilə müqayisədə daha tutarlı və məntiqəuyğundur.

Həmçinin "Sabır ve oruç ilişkisi", "İslamın sehr və caduya baxışı" ("Biharül-ənvar" əsəri kontekstində), "Füzulinin "Hədiqətüs-süəda"sından XIX əsr təriqət şeirinə", "Müəllifləri yeni aşkarlanan təfsirlər", "İsraf və onun sosial-psixoloji tərəfləri", "Millətini müasirləşməyə səsləyən ideoloq: Həsən bəy Zərdabi" başlıqlı məqalələrin də yer aldığı toplunun sonunda bu sayda işlədilmiş dini-fəlsəfi terminlərin izahı verilib.



# Dini qurumların dövlət reyestr məlumatı

**Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsi**
**“İmam Hüseyn” məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 noyabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 25**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bakı şəhəri Əzizbəyov rayonu Türkan qəsəbəsi “İmam Hüseyn” məscidi dini icmasının adı dəyişdirilərək Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsi “İmam Hüseyn” məscidi dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Həmçinin, dini icmanın hüquqi ünvanı dəyişdirilərək Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi, Xanlar küçəsi, 31a, “İmam Hüseyn” məscidi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **08 yanvar 2015-ci il**

---

**Masallı rayonu Aşurlu kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A3 – 148**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əlifattayev Müqabil Əliağa oğlu, Alışov Niftulla Alış oğlu və Vəliyev Şahmar Bayraməli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əbilov Məhərrəməli Rəhman oğlu, İbrahimov İmran Qələm oğlu, Məcidov Ağagül Əliağa oğlu, İsrafilov Mahir Gülməmməd oğlu, Bağışov Nemət Nəriman oğlu, Məmmədov Həmdulla Nüsrət oğlu, Həbibov Fayaz Ayaz oğlu, Məcidov Həmid Hacıağa oğlu, Rüstəmov Məzahir Qüdrət oğlu, Ağayev Ələkbər Möhsüm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Əlifattayev Müqabil Əliağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əbilov Məhərrəməli Rəhman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **16 mart 2015-ci il**

---

**Ağsu rayonu Çiyni kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 167**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Təvəkgül Məhyəddin oğlu, İsmayılov İsmayıl Əliqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. İsmayılov Elşən Baxış oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Quliyev Təvəkgül Məhyəddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İsmayılov Elşən Baxış oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **16 mart 2015-ci il**

---

**Masallı rayonu Təzə Alvadı kəndi**
**“Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 16 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 298**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Həsənağa Əli oğlu, Abdullayev Abı Kəlbi oğlu, Muxtarov Əhmədağa İxtiyar oğlu, Qurbanov Ağamirzə İdris oğlu, Qurbanov Qurban Qulam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Alışov Ağamirzə Əlövsət oğlu, Ağaliyev Zamin Musa oğlu, Həsənov Eldəniz Alı oğlu, Əkbərov Cəbrayıl Qulam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Hüseynov Həsənağa Əli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Alışov Ağamirzə Əlövsət oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **16 mart 2015-ci il**

---

**Tovuz rayon məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 97**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəribov Mahir İsmayıl oğlu, Alıyev Kamran Əkbər oğlu, Əliyev Firdovsi Firudin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Qasimi Taha Mirzəli oğlu, Abbasov Mətləb Zahid oğlu, Yusibov Adil Sədrəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **16 mart 2015-ci il**

---

**Qusar rayonu Avaran kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 25 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 377**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Rəhimxanov Fəryaddin Zahir oğlu, Səfərov Elşad Mübariz oğlu, Pirəliyev Rahib Səfərbəy oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əmrahov Əmrah Mövsüm oğlu, Qurbanov Mühacib Abdul oğlu, Şıxqayıbov Edik Rauf oğlu, Musayev Radik Azibəy oğlu, Sultanəhmədov Tofik Nəcməddin oğlu, İbrahimov Tacir Səbəbulla oğlu, Qurbanov Güləhməd Qayıbxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Rəhimxanov Fəryaddin Zahir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Əmrahov Əmrah Mövsüm oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **16 mart 2015-ci il**

---

**Gədəbəy şəhəri “Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 21yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 171**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Elvin Çingiz oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, İmanov Arzu Məmmədəli oğlu, Quliyev Elçin İsaq oğlu, Mustafayeva Məryəm Zülfüqar qızı, İmanov Samiq Arzu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **17 mart 2015-ci il**

---

**“Sumqayıt Yəhudiləri” dini icması**
**Qeydiyyat tarixi: 08 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 68**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanı dəyişdirilərək Sumqayıt şəhəri, 3-cü məhəllə, ev 6/21, mənzil 22 kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **19 mart 2015-ci il**

---

**Zaqatala rayonu Höytala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 291**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İgidov Məmməd Uluxan oğlu, Qardaşov Məhəmməd Ömər oğlu, Əmətov Əmət Mollamuhuma oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Cəmilov Hikmət İbrahimxəlil oğlu, Qallayev Nurhuda Əsəbəli oğlu, Əliyev Əhməd Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. İgidov Məmməd Uluxan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Qallayev Nurhuda Əsəbəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Balakən rayonu Püştətala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 30 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 263**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Tinətiyev İsmayıl İbrahim oğlu, Devricov Siracəddin Rüfət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Laçınov Tural İbrahim oğlu, Qudavasov Rövşən Sabir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Masallı rayonu Ağakişibəyli kəndi**
**“Şeyx Həsən” məscidi dini icması**
**Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 84**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Quliyev Tələt Hüseynalı oğlu, Əsədov Arif Əlipənah oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Quliyev Səyavuş Ağababa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Şahverdiyev Yəhyə Fəyyaz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Quliyev Səyavuş Ağababa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Quba rayonu I Nügədi kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 fevral 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 233**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mirzəyev Famil Rəcəb oğlu, Qarayev Əliəkrəm Mövsüm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Şükürov Sahib Qənbər oğlu, Kərimov Abdulla Seyfəddin oğlu, Novruzov Elsevər Seyfəddin oğlu, Nəcəfov Faiq Qafar oğlu, Qardaşəliyev Qiyafəddin Şərafəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Şahverdiyev Yəhyə Fəyyaz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Quliyev Səyavuş Ağababa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Sumqayıt şəhəri Katec qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 178**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Möhsümov Nadir Mirşamil oğlu, Cəfərov Nəriman Fərman oğlu, Seyidmirzə Əsəf oğlu, Mövsümov Şamil Nadir oğlu, Baxşəliyev Mehman Novruzəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Fəttayev Mirfəyyaz Mirəli oğlu, Ələkbərov Elşad Mirhadi oğlu, Orucov Bəhruz Rövşən oğlu, Mövsümov Şahin Səftər oğlu, Cahangirov Qabil Sahib oğlu, Məmmədov Rakif Məmmədağa oğlu, Ağayev Aslan Şahyar oğlu, Şəfiyev Mahir Şahkərəm oğlu, Mövsümov Mirsahib Şamil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Möhsümov Nadir Mirşamil oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Fəttayev Mirfəyyaz Mirəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Balakən şəhəri “Mərkəzi Cümə”**
**məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 46**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zaranov Hacıyov Əli oğlu, Ramazanov Abdurəhman Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Paxırov Məhəmməd Abakar oğlu, Uluxanov Həbibullah Həmzət oğlu, Bayramov Rəhim Alı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Balakən rayonu Qazma kəndi**
**“Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 19 may 2011-ci il**
**Qeydiyyat №-si: 100111A1 – 522**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Musayev Hacı Əhməd oğlu, Əliyev Sofyan Abdulməcid oğlu, Muradov İsfəndiyar Bəşir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. İsaqov Məhəmməd İsaq oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Musayev Hacı Əhməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İsaqov Məhəmməd İsaq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: **02 aprel 2015-ci il**

---

**Hacıqabul rayonu Abdulabad kəndi**
**“Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 271**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Xanbala Güləhməd oğlu, Atakişiyev Rafiq Xanali oğlu, Şirəliyev Əliniyaz Məmmədqasım oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Talıbov Talıb Rauf oğlu, Talıbov Kəramət Mecid oğlu, Cavadov Elvin Əlirza oğlu, Cavadov Amin Əlirza oğlu, Cavadov Mərhəmət Eldar oğlu, Kazımov Şamil Gülhüseyn oğlu, Mustafazadə Ağa Vahid oğlu, Süleymanov Xubyarəli Əliyusif oğlu, Hüseynov Sehran Təvəkkül oğlu, Məmmədov Vidadi Əzizağa oğlu, Babayev Bağır İdayət oğlu, Şıxaliyev Bəybala Xanbala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: **10 aprel 2015-ci il**

## Ləğv olunan dini icmalar

**Goranboy rayonu Qızılhacılı**
**qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 29.01.2003-cü il**
**Qeydiyyat № 159**

Goranboy rayonu Qızılhacılı qəsəbə dini icması təsisçilərinin 07.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Kürdəmir rayonu Karrar kənd dini icması**
**Qeydiyyat tarixi: 23.04.2003-cü il**
**Qeydiyyat № 178**

Kürdəmir rayonu Karrar kənd dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **10 aprel 2015-ci il**

---

**Şəki rayonu Turan qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.11.2003-cü il**
**Qeydiyyat № 224**

Şəki rayonu Turan qəsəbə dini icması təsisçilərinin 16.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **18 fevral 2015-ci il**

---

**Şəki şəhəri “Qışlaq Topqarağac”**
**məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.12.2007-ci il**
**Qeydiyyat № 1307Şə1-411**

Şəki şəhəri “Qışlaq Topqarağac” dini icması təsisçilərinin 16.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **10 aprel 2015-ci il**

---

**Biləsuvar rayonu Səmədabad**
**kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 29.10.2003-cü il**
**Qeydiyyat № 213**

Biləsuvar rayonu Səmədabad kənd məscidi dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Zaqatala rayonu Danaçı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20.08.2003-cü il**
**Qeydiyyat № 210**

Zaqatala rayonu Danaçı kənd məscidi dini icması təsisçilərinin 06.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Qax şəhər dindarlarının dini icması**
**Qeydiyyat tarixi: 24.06.2002-ci il**
**Qeydiyyat № 1132**

Qax şəhər dindarlarının dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Qax rayonu Ağçay kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 26.11.2008-ci il**
**Qeydiyyat № 1308 Qo-524**

Qax rayonu Ağçay kənd məscidi dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Balakən rayonu Katex kənd dini icması**
**Qeydiyyat tarixi: 29.10.2003-cü il**
**Qeydiyyat № 222**

Balakən rayonu Katex kənd dini icması təsisçilərinin 09.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Əli Bayramlı şəhəri “Ərrəhman”**
**məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.11.2003-cü il**
**Qeydiyyat № 299**

Əli Bayramlı şəhəri “Ərrəhman” məscidi dini icması təsisçilərinin 18.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **10 aprel 2015-ci il**

---

**Hacıqabul şəhər dini icması**
**Qeydiyyat tarixi: 07.05.2004-cü il**
**Qeydiyyat № 254**

Hacıqabul şəhər dini icması təsisçilərinin 13.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Şamaxı rayonu Bağırlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 04.07.2007-ci il**
**Qeydiyyat № 1307Ş1-396**

Şamaxı rayonu Bağırlı kənd məscidi dini icması təsisçilərinin 12.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Qəbələ rayonu Böyük Pirəlli kənd**
**məscidi dini icması**
**Qeydiyyat tarixi: 17.08.2004-cü il**
**Qeydiyyat № 280**

Qəbələ rayonu Böyük Pirəlli kənd məscidi dini icması təsisçilərinin 07.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: 03 aprel 2015-ci il

---

**İsmayıllı rayonu Təzəkənd kənd dini icması**
**Qeydiyyat tarixi: 25.03.2005-ci il**
**Qeydiyyat № 316**

İsmayıllı rayonu Təzəkənd kənd dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Qax rayonu İlisu kənd dini icması**
**Qeydiyyat tarixi: 07.07.2005-ci il**
**Qeydiyyat № 1305A1-322**

Qax rayonu İlisu kənd dini icması təsisçilərinin 10.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Zaqatala rayonu Muğanlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24.06.2002-ci il**
**Qeydiyyat № 123**

Zaqatala rayonu Muğanlı kənd məscidi dini icması təsisçilərinin 04.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

---

**Qəbələ rayonu Bum kənd dini icması**
**Qeydiyyat tarixi: 07.02.2003-cü il**
**Qeydiyyat № 55**

Qəbələ rayonu Bum kənd dini icması təsisçilərinin 07.03.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qeydiyyata alınma tarixi: **03 aprel 2015-ci il**

# Cəmiyyət və Din

№ 04 (285) / APREL 2015-ci il


## Bu məscidə corabsız girmək olmaz!



Türkiyənin Ədirnə şəhərindəki türk-İslam memarlığının ən önəmli nümunələrindən hesab olunan "Səlimiyyə" məscidini ziyarət etməklə bağlı yeni qərar qəbul olunub. Qərara əsasən, tarixi məbədə ibadət və ya ziyarət məqsədilə gedənlər içəriyə corabsız buraxılmayacaq. Bu qadağaya səbəb kimi insan sağlamlığının qorunması və tarixi məscidin təmiz saxlanılması göstərilib.

Qərarı razılıqla qarşılayan Ədirnə şəhər müftisi Hafiz Tamer Alat isə məscidə gələn corabsız ziyarətçilərə pulsuz corab paylanacağını bildirib: "Bundan sonra məscidimizə corabsız girilməyəcək. Dinimiz təmizlik dinidir və Peyğəmbərimiz (s) "təmizlik imandandır" - deyir". Bizim üçün təmizliyin əhəmiyyətli olduğunu deyən müfti qeyd edib ki, İstanbuldan bir biznesmenin dəstəyi ilə corabsız ziyarətçilərə birdəfəlik istifadə üçün corab paylayacağıq".

Qeyd edək ki, bundan əvvəl qəbul olunmuş qərara əsasən, "Səlimiyyə" məscidi 24 saat ziyarətçilər üçün açıq saxlanılır və buraya gələn qadınlara hicab hədiyyə edilir.

Xatırladaq ki, sözügedən ibadət ocağının tikintisinə 1568-ci ildə Memar Sinan tərəfindən başlanılıb və inşaat işi 1574-cü ildə tamamlanıb.

## E L A N L A R

Goranboy rayonu Borsunlu kənd icmasının (293 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 06.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Saatlı şəhəri "Cümə" məscidi dini icmasının (195 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 20.04.2015-ci il tarixli ərizə ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Bakı şəhəri "Mirtağı" məscidi dini icmasının (370 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 14.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Abşeron rayonu Aşağı Güzdək qəsəbə məscidi dini icmasının (283 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 14.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icmasının (45 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 11.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Oğuz rayonu Kərimli kənd məscidi dini icmasının (130701-410 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Qobustan rayonu Təklə kənd məscidi dini icmasının (205 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 02.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Şəki rayonu Qoxmuq kənd məscidi dini icmasının (152 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 13.04.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Şəki şəhər "Qışlaq Topqarağac" məscidi dini icmasının (411 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

Şəki şəhər Turan qəsəbə məscidi dini icmasının (224 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Əli Bayramlı şəhər "Ərrəhman" məscidi dini icmasının (299 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 18.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

Kürdəmir rayonu Karrar kənd məscidi dini icmasının (178 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 17.03.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

### Yadigar söz

**Heydər Əliyev**
*Ümummilli Lider*

**1941-1945-ci illər müharibəsində qazanılmış qələbə dünyanın tərəqqipərvər qüvvələrinin qələbəsidir, faşizmin əleyhinə qalxmış bütün xalqların, Sovetlər İttifaqında birləşmiş bütün xalqların, … Azərbaycan xalqının, respublikamızın qələbəsidir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 May | 05:24 | 06:41 | 13:42 | 18:06 | 20:49 | 22:18 |
| 2 May | 05:22 | 06:40 | 13:42 | 18:07 | 20:50 | 22:19 |
| 3 May | 05:22 | 06:40 | 13:42 | 18:07 | 20:50 | 22:19 |
| 4 May | 05:21 | 06:39 | 13:41 | 18:07 | 20:51 | 22:21 |
| 5 May | 05:19 | 06:38 | 13:41 | 18:08 | 20:52 | 22:22 |
| 6 May | 05:17 | 06:36 | 13:41 | 18:08 | 20:53 | 22:24 |
| 7 May | 05:16 | 06:35 | 13:41 | 18:09 | 20:54 | 22:25 |
| 8 May | 05:14 | 06:34 | 13:41 | 18:09 | 20:56 | 22:27 |
| 9 May | 05:13 | 06:33 | 13:41 | 18:10 | 20:57 | 22:28 |
| 10 May | 05:11 | 06:32 | 13:41 | 18:10 | 20:58 | 22:30 |
| 11 May | 05:10 | 06:31 | 13:41 | 18:10 | 20:59 | 22:32 |
| 12 May | 05:09 | 06:30 | 13:41 | 18:11 | 21:00 | 22:33 |
| 13 May | 05:07 | 06:29 | 13:41 | 18:11 | 21:01 | 22:35 |
| 14 May | 05:06 | 06:27 | 13:41 | 18:12 | 21:02 | 22:36 |
| 15 May | 05:05 | 06:26 | 13:41 | 18:12 | 21:03 | 22:38 |
| 16 May | 05:03 | 06:26 | 13:41 | 18:13 | 21:04 | 22:39 |
| 17 May | 05:02 | 06:25 | 13:41 | 18:13 | 21:05 | 22:41 |
| 18 May | 05:01 | 06:24 | 13:41 | 18:14 | 21:06 | 22:42 |
| 19 May | 05:00 | 06:23 | 13:41 | 18:14 | 21:07 | 22:44 |
| 20 May | 04:58 | 06:22 | 13:41 | 18:14 | 21:08 | 22:45 |
| 21 May | 04:57 | 06:21 | 13:41 | 18:15 | 21:09 | 22:47 |
| 22 May | 04:56 | 06:20 | 13:41 | 18:15 | 21:10 | 22:48 |
| 23 May | 04:55 | 06:19 | 13:41 | 18:16 | 21:11 | 22:50 |
| 24 May | 04:54 | 06:19 | 13:41 | 18:16 | 21:12 | 22:51 |
| 25 May | 04:53 | 06:18 | 13:41 | 18:17 | 21:13 | 22:52 |
| 26 May | 04:52 | 06:17 | 13:41 | 18:17 | 21:14 | 22:54 |
| 27 May | 04:51 | 06:17 | 13:41 | 18:17 | 21:15 | 22:55 |
| 28 May | 04:50 | 06:16 | 13:42 | 18:18 | 21:15 | 22:57 |
| 29 May | 04:49 | 06:15 | 13:42 | 18:18 | 21:16 | 22:58 |
| 30 May | 04:48 | 06:15 | 13:42 | 18:19 | 21:17 | 22:59 |
| 31 May | 04:47 | 06:14 | 13:42 | 18:19 | 21:18 | 23:00 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Azərbaycan Böyük Vətən müharibəsində

Faşizm üzərində qələbə digər bir çox xalqlar kimi Azərbaycan xalqının da qanı və külli miqdarda maddi sərvətlərinin itirilməsi, böyük məhrumiyyətlər hesabına əldə edilmişdir. İkinci Dünya müharibəsində həlak olan 57 milyon insandan 27 milyonu Sovet vətəndaşları olmuşdur ki, onlardan da 300 mindən çoxu azərbaycanlılar idi.

Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmişdir. Ümumilikdə 42 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərində ölkənin neft və neft məhsulları, təyyarələrin və tankların motor yağı, benzinlə təmin edilməsinin dörddəüçü Azərbaycanın istehsalı idi. O dövrdə ölkədə istehsal edilən neftin 70-75%-i, benzinin 85-90%-i Azərbaycanın payına düşürdü. 1941-1945-ci illərdə Azərbaycan ölkəyə 70 milyon ton neft, 22 milyon ton benzin göndərmişdir. Müharibə dövründə Bakıda 130-dan çox növdə silah və döyüş sursatı istehsal edilirdi. Şəxsi vəsaitlərdən müdafiə fonduna 15 kq. qızıl, 952 kq. gümüş, 320 mln. rubl verilmişdir. Cəbhəyə 1,6 mln.-dan çox zəruri mal və 125 vaqon isti geyim göndərilmişdir. Ölkə qospitallarında cəbhədə yaralanmış 440 min nəfər müalicə olunmuşdur.




Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: cemiyyet-din@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri: Bakı (Bakı): (012) 437 31 14; Sumqayıt-Abşeron (Sumqayıt): (0186) 5 85 98; Şimal (Quba): (02333) 5 22 70; Şimal-Qərb (Zaqatala) (02422) 5 32 23; Şirvan (Ağdaş): (02023) 5 50 97; Qərb (Gəncə): (02225) 6 91 14; Qarabağ (Ağcabədi): (02127) 5 52 00; Cənub (Lənkəran): (02525) 5 39 84; Aran (Şirvan) (050) 588 07 82

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894